RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 200 (9945) 19 sentyabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Zəfərin təntənəsi, suverenliyin nidası

Antiterror tədbirləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. Əməliyyat tədbirləri nəticəsində Xocalı rayonu və Qırmızı Bazar istiqamətində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbitəyinatlı obyektləri, separatçılara məxsus P-18 radiolokasiya stansiyası (RLS), Ağdərə istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 5-ci müdafiə briqadasına məxsus sursat anbarlarından biri, sığınacaq və döyüş texnikası, mülki infrastrukturumuzu hədəfə alan Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus top qurğusu bölmələrimizin sərrast atəşi nəticəsində məhv edilir, Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus hərbi təyinatlı radiotexniki qovşaq zərərsizləşdirilir.

Antiterror tədbirləri zamanı Azərbaycan hərbçiləri böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərirlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərərək qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə edirlər.

Bir gün ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı.

Azərbaycan Ordusu, cəsur əsgərlərimiz isə 44 günlük İkinci Qarabağ müharibəsində olduğu kimi, bu əməliyyat tədbirlərində heç bir mülki obyektə, mülki əhaliyə ziyan vurmadı. Azərbaycanın suveren ərazisində həyata keçirdiyi kompleks tədbirlərlə bölgədə olan separatçı qüvvələr məhv edildi. Böyük xülyalarla yaradılan qondarma rejim isə tarixin arxivinə göndərildi.

Cəmi 23 saat 43 dəqiqə çəkdi antiterror tədbirləri. Bu 23 saatın mahiyyətində ikiəsrlik münaqişənin, otuzillik savaşın, onilliklər boyu davam edən separatizmin "dəmir yumruq"la birdəfəlik məhvi dayanır.

Bu bir günün timsalında Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tam təminatı dayanır.

5

# Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uğurlu əməkdaşlıq qurulub

## Prezident İlham Əliyev Avropa İttifaqının Genişlənmə siyasəti üzrə komissarını qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Avropa İttifaqının Genişlənmə siyasəti üzrə komissarı Marta Kosu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Marta Kos Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəlilədilməsi istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Qonaq dedi ki, Avropa İttifaqı regionda davamlı sülhün təmin olunmasına yönəlmiş səylərə və Azərbaycanın humanitar minatəmizləmə sahəsindəki fəaliyyətinə dəstəyini bundan sonra da davam etdirəcək.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlığın qurulduğunu deyərək, həmçinin nəqliyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğunu vurğuladı.

Prezident İlham Əliyev bu ilin mayında Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen ilə görüşünü məmnunluqla xatırladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, Azərbaycanın regionda sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini vurğuladı. Regionda nəqliyyat bağlantılarının yaradılması üçün yaxşı imkanların olduğunu deyən Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə yol-nəqliyyat infrastrukturunun qurulması ilə bağlı Azərbaycanın intensiv işlər gördüyünü qeyd etdi. Bu xüsusda Zəngilana gedən avtomobil və dəmir yolu xətlərinin əhəmiyyətini vurğuladı.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunan dövlətimizin başçısı Azərbaycan qazının hazırda Avropanın 10 ölkəsinə, o cümlədən Avropa İttifaqına üzv 8 dövlətə ixrac olunduğunu dedi və ixrac coğrafiyasının genişləndiyini qeyd etdi.

Görüşdə Orta dəhliz ilə Mərkəzi Asiyadan Azərbaycana gələn yüklərin həcmində əsaslı dərəcədə artımın müşahidə olunduğu bildirildi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana səfəri barədə paylaşım edib



Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan öz sosial media hesabında Azərbaycana səfəri və Prezident İlham Əliyevlə görüşü barədə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan dilində edilən paylaşımda deyilir: "Mən Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında inkişaf edən ikitərəfli münasibətləri nəzərdən keçirmək məqsədilə Qarabağda zati-aliləri Prezident İlham Əliyev ilə görüşməkdən məmnun oldum. Biz bu yaxınlarda imzalanmış Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişinin verdiyi imkanlardan faydalanaraq, iqtisadi inkişafı sürətləndirmək, ortaq imkanlar yaratmaq, regional və qlobal sülh və sabitliyi dəstəkləməyə yönəlmiş əməkdaşlığın yeni istiqamətlərini araşdırdıq".

# Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, orta əsrlər Azərbaycan memarlığının inkişafında müstəsna yeri olan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin xatirəsinin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan şəhərində görkəmli memar Əcəmi Naxçıvaninin abidəsi ucaldılsın.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2025-ci il*

# Counz Robert Qərinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Counz Robert Qəri "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2025-ci il*




# Füzulidə qarşılanma, Şuşada razılaşma

BƏƏ-nin "Masdar" şirkətinin Azərbaycandakı iri günəş və külək enerjisi layihələrinə sərmayə qoyması tərəflərin bu günü və sabahı birlikdə qurmaq niyyətlərindən xəbər verir. Qeyd olunan əməkdaşlıq Azərbaycanın "yaşıl enerji zonası" konsepsiyasına beynəlxalq dəstəyin nümunəsi kimi də diqqət çəkir. Bu, "Masdar" şirkətinin Azərbaycanda alternativ enerji sahəsinə böyük maraq göstərməsi ilə ehtiva olunur. Qaradağda inşa olunan günəş-elektrik stansiyası "yaşıl enerji" strategiyasına beynəlxalq dəstəyin bariz göstəricisidir.

Məhz bu cür layihələrin fonunda dövlət başçıları səviyyəsində atılan addımlar əməkdaşlığa daha ciddi şəkildə təkan verir.

7






# "Müstəqilliyimiz əbədidir" çoxcildliyindən: Azərbaycan bütün ölkələrlə qarşılıqlı münasibətlərini müstəqil surətdə həyata keçirir

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 10-cu kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, bu kitabda yer alan materiallar 1995-ci il noyabrın 29-dan 1996-cı il yanvarın 20-dək olan dövrü əhatə edir. Nəşrdə Ulu Öndər Heydər Əliyevin həmin dövrdə çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri, məktubları və digər materiallar toplanıb.

Kitabda Heydər Əliyevin Londonda Adam Smit İnstitutunun təşəbbüsü ilə "Azərbaycanda investisiya imkanları" mövzusuna həsr olunmuş beynəlxalq konfransda geniş nitqinin, beynəlxalq mətbuat orqanlarına müsahibələrinin mətnləri, Fransaya səfəri zamanı keçirdiyi görüş və danışıqlara dair materiallar verilib. 1995-ci il dekabrın 5-də Dünya Bankı Parisdə "Azərbaycan üçün investisiyalar" adlı beynəlxalq konfrans təşkil edib. O zaman konfransda çıxış edən Prezident Heydər Əliyev Azərbaycanın bütün ölkələrlə münasibətlərini müstəqil şəkildə həyata keçirdiyini bildirərək deyib: "Azərbaycan qədim mədəniyyətə, böyük tarixə malik bir respublikadır. Azərbaycan bəşəriyyətin inkişafının bir çox mərhələlərini yaşamış bir diyardır. Azərbaycan xalqı dünya sivilizasiyasına öz layiqli töhfəsini vermiş bir xalqdır. Azərbaycan öz dövlət müstəqilliyini cəmi 4 il bundan əvvəl əldə etmişdir. Bu gün o, dünya birliyinin tamhüquqlu üzvüdür, bütün beynəlxalq təşkilatlara daxildir. Birləşmiş Millətlər Təşkilatının üzvüdür və öz hüquqlarını dünyanın bütün ölkələri ilə, öz qarşılıqlı münasibətlərini müstəqil surətdə, suveren surətdə həyata keçirir".

Çoxcildliyin bu kitabına 1995-ci ilin dekabrında Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəsmi səfərə gəlmiş Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl ilə görüşünə dair materiallar da daxil edilib. Həmin materiallardan biri də Süleyman Dəmirəl ilə Milli Məclisdə keçirilmiş görüş haqqındadır. Görüşdə Heydər Əliyevin dərin məzmunlu nitqində Süleyman Dəmirələ söylədiyi bu fikirlər Azərbaycan-Türkiyə münasibətlərinin ifadəsi baxımından da diqqət çəkir: "Siz dediniz ki, Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür. Bilirsiniz və yəqin bunu bu gün bir daha hiss edirsiniz ki, Azərbaycanın da qəlbi daim Türkiyənin qəlbi ilə döyünür. Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir, Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir, Türkiyənin daha da inkişaf etməsini istəyir. Böyük sınaqlardan keçən dostluq və qardaşlıq əlaqələri bizi məhz bu yola gətirib çıxarmışdır, bizdə məhz belə məhəbbət və sevgi hissləri yaratmışdır. Bu hisslər heç vaxt sönməyəcəkdir. Bunu söndürmək də mümkün deyildir. Çünki bu, içdən gələn, qəlbdən gələn hisslərdir. Türkiyənin Azərbaycana, onun müstəqillik əldə etməsinə və müstəqillik yolunda ağır sınaqlardan çıxmasına etdiyi köməyə görə Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından Sizə, hörmətli Prezident, Türkiyə Respublikasına, Türkiyə xalqına bir daha öz təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Türkiyə Respublikası indi yeni müstəqillik əldə etmiş bir çox ölkələr üçün, dövlətlər üçün örnəkdir. Belə dövlətlərdən biri də Azərbaycandır. Biz arzu edirik ki, Türkiyə Respublikası özünün bu mövqelərini həmişə qoruyub saxlasın və həmişə bizim üçün təcrübə mənbəyi olsun. Bizim arzu və istəyimiz bundan ibarətdir ki, türk dünyası, türkdilli xalqlar, bir kökdən, bir mənşədən olan millətlər daha da yaxınlaşsın, daha da birləşsin, bir-birinə kömək etsin, bir-biri ilə daha da mehriban olsun, bir-birinə yardımçı olsunlar".

Kitabda Ümummilli Lider Heydər Əliyevin Xalq yazıçısı Yusif Səmədoğlunun 60 illik yubileyinə həsr olunmuş mərasimdə çıxışının mətni, Azərbaycan Kinematoqrafçılarının VIII Qurultayına təbrik məktubu, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan xalqına müraciəti, Yeni il münasibətilə Azərbaycan xalqına təbriki də yer alıb.

Bu cilddə, həmçinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, Prezidentin sədrliyi ilə icra və idarəetmə işlərinin təkmilləşdirilməsinə dair Nazirlər Kabinetinin ilk iclasında giriş və yekun nitqləri verilib. Nəşrə erməni təcavüzünün ağır nəticələrinin aradan qaldırılmasına, daxili və xarici siyasətin başlıca istiqamətlərinə dair digər materiallar da daxil edilib.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Özbəkistanda keçirilən beynəlxalq forumda Azərbaycanda aparılan sosial islahatlara dair məlumat verilib

Özbəkistanda "Yoxsulluqdan rifaha doğru" mövzusunda Yoxsulluğun Azaldılması üzrə III Beynəlxalq Forum keçirilib.



Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin çıxışı ilə öz işinə başlayan forum panel sessiyalarda müzakirələrlə davam edib.

Forumda BMT, Dünya Bankı, Asiya İnkişaf Bankı və digər nüfuzlu beynəlxalq təşkilatlardan, həmçinin müxtəlif ölkələrdən nümayəndələr və ekspertlər iştirak ediblər.

"Qlobal Əməkdaşlıq və Tərəfdaşlıq: Beynəlxalq təşkilatların və regional əməkdaşlığın yoxsulluğun azaldılmasının sürətləndirilməsində rolu" mövzusunda təşkil olunan panel sessiyada Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev çıxış edib.

O, dövlət başçımızın tapşırıqları ilə son illər ölkəmizdə beş böyük sosial islahat paketinin icra olunduğunu diqqətə çatdırıb. Sosial müdafiə sahəsində dövlət siyasətinin Dünya Bankı, Asiya İnkişaf Bankı, Beynəlxalq Əmək Təşkilatı kimi beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində həyata keçirildiyini bildirib.

Ölkəmizdə həssas əhali qruplarından olan şəxslərin sosial müdafiəsində Azərbaycan brendi olan unikal DOST modelinin rolu vurğulanıb. DOST mərkəzlərində 161 xidmətin "bir pəncərə"dən, müasir və çevik, tam şəffaf formada vətəndaşlara təqdim olunduğu qeyd olunub.

Əhalinin rifahının yüksəldilməsində mühüm istiqamət olan məşğulluq sahəsində ölkəmizdə genişmiqyaslı islahatlar aparıldığı, 2030-cu ilə qədər dövr üçün Məşğulluq Strategiyasının qəbul edilməsi ilə bu sahədə yeni imkanlar açıldığı bildirilib. Bu islahatlar nəticəsində 803 mindən çox işsiz və işaxtaran şəxsin işlə təmin olunduğu, 52 min nəfərin peşə hazırlığına cəlb olunduğu, Özünüməşğulluq proqramı çərçivəsində 100 minədək ailənin kiçik təsərrüfatlarını yaratdığı diqqətə çatdırılıb.

Ölkəmizdə əmək, məşğulluq və sosial müdafiə sahələrində xidmətlərin rəqəmsallaşdırılması istiqamətində əldə olunan mühüm irəliləyişlər barədə forum iştirakçılarına məlumat verilib.

# Azərbaycanın Baş naziri Qırğızıstana işgüzar səfərə gedib






Sentyabrın 18-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Qırğız Respublikasına işgüzar səfərə gedib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

# Baş nazir Əli Əsədov Bişkekdə Qırğızıstan Prezidenti Sadır Japarovla görüşüb

Sentyabrın 18-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Bişkek şəhərinə işgüzar səfəri çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş nazirlərinin/Vitse-prezidentinin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə görüşündə iştirak edib.





Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Qırğızıstan Prezidenti Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş nazirlərinin/Vitse-prezidentinin ilk görüşünün iştirakçılarını salamlayıb.

Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Qırğız Respublikasının Prezidenti Sadır Japarova çatdırıb.

Baş nazir, həmçinin Azərbaycan-Qırğızıstan strateji tərəfdaşlıq əlaqələrinin gündəliyində duran aktual məsələlərə toxunub.

# Baş nazir Əli Əsədov TDT-yə üzv ölkələrin Bişkek görüşündə Zəngəzur dəhlizinin önəmindən danışıb





Sentyabrın 18-də Qırğız Respublikasının Bişkek şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin görüşü keçirilib. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov görüşdə iştirak edib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə çıxış edən Ə.Əsədov türk dövlətlərinin səylərinin birləşdirilməsinin sabitlik, təhlükəsizlik və rifahın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qarşılıqlı faydalı əməkdaşlığın TDT-yə üzv ölkələr arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi, iqtisadi potensialın gücləndirilməsi və nəqliyyat dəhlizlərinin şaxələndirilməsi üçün yeni imkanlar açdığı diqqətə çatdırılıb. Qeyd edilib ki, Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə ikitərəfli müstəvidə strateji tərəfdaşlıq və ya müttəfiqlik münasibətləri qurub.

İqtisadi əməkdaşlığın dinamikasından məmnunluq ifadə edən Baş nazir cari ilin yanvar-iyul aylarında Azərbaycanın TDT dövlətləri ilə ticarət əlaqələrinin 8 faizdən çox artdığını diqqətə çatdırıb. İnvestisiya sahəsində əməkdaşlıq barədə danışan Baş nazir Azərbaycan tərəfindən təşkilatın üzv ölkələrinə yatırılan sərmayələrin həcminin 21 milyard ABŞ dollarına yaxın olduğunu vurğulayıb. "Biz üzv dövlətlərdən olan bir sıra tərəfdaşlarımızla birgə investisiya fondları yaratmışıq və bu, iqtisadiyyatın prioritet sektorlarına qarşılıqlı investisiyaların təşviqinə imkan verir", - deyə Baş nazir bildirib.

Türk dövlətləri arasında nəqliyyat sahəsində əməkdaşlığın artan xətt üzrə inkişaf etdiyi və regional əlaqələrin möhkəmlənməsinə əhəmiyyətli töhfə verdiyi vurğulanıb. "Türk dövlətlərinin ərazisindən keçən və təkcə regionumuz üçün deyil, həm də qlobal ticarət və nəqliyyat əlaqələrinin genişləndirilməsi baxımından strateji rol oynayan Orta dəhlizin önəmi getdikcə artmaqdadır. Bu kontekstdə Azərbaycanın əsas ərazisinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsinə dair bu yaxınlarda Vaşinqtonda əldə edilmiş razılaşmalar tarixi əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizinin açılması bütün region dövlətlərinə yeni iqtisadi və tranzit fürsətləri qazandırmaqla yanaşı, Orta dəhlizə inteqrasiya olunmaqla, onun ötürücülük qabiliyyətini artıracaq", - deyə Ə.Əsədov qeyd edib.

Görüşdə rifahın, inkişafın və regional inteqrasiyanın təşviqində TDT-nin rolu, həmçinin ticarət, investisiya, nəqliyyat, enerji və kənd təsərrüfatı kimi prioritet iqtisadi sahələrdə əlaqələr, təşkilat çərçivəsində çoxşaxəli əməkdaşlığın gücləndirilməsi üçün TDT mexanizmlərinin genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb.

Görüşün nəticələrinə dair Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin Birgə Bəyanatı qəbul edilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Malayziyanın Baş naziri Ənvər İbrahim ilə görüşüb

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Baş nazir Ənvər İbrahim Azərbaycan parlamentinin spikerini salamlayaraq, AİPA- nın 46-cı Baş Assambleyasının əhəmiyyətini qeyd edib və tədbirdə iştirakına görə Milli Məclisin Sədrinə təşəkkürünü bildirib.







O, Azərbaycan Prezidenti İlham Əliyevə salamlarını və ən xoş arzularını çatdırmağı xahiş edib.

Söhbət zamanı Baş nazir Azərbaycanın dinamik inkişafını izlədiklərini söyləyib, ölkəmizin əldə etdiyi uğurların, xüsusən iqtisadi tərəqqinin, beynəlxalq nüfuzunun artmasının Malayziyanı sevindirdiyini bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanla Malayziya arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin əhəmiyyətini qeyd edib. Ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyindən məmnunluq ifadə olunub.

Görüşdə parlamentlər arasında əməkdaşlıq məsələləri haqqında fikir mübadiləsi aparılıb. Qarşılıqlı səfərlər, parlament üzvlərinin birgə fəaliyyəti ilə yanaşı, parlamentlərimizin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, Parlamentlərarası İttifaq, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, Asiya Parlament Assambleyası kimi parlamentlərarası təşkilatlar çərçivəsində müsbət əməkdaşlığı da xüsusi vurğulanıb.

Söhbət zamanı Milli Məclisin Sədri Azərbaycanın müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən nəhəng layihələr, keçmiş məcburi köçkünlərin öz yurdlarına qaytarılması istiqamətində görülən işlər haqqında da məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Malayziyada AİPA-nın 46-cı Baş Assambleyasında çıxış edib






Malayziyanın Kuala Lumpur şəhərində səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 18-də Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının (AİPA) 46-cı Baş Assambleyasının açılış mərasimində iştirak edib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Malayziyanın Baş naziri Dato Seri Ənvər Bin İbrahimin, təşkilata üzv ölkələrin və müşahidəçi statuslu ölkələrin parlament rəhbərlərinin və təmsilçilərinin iştirak etdikləri mərasimdə çıxış edənlər AİPA-nın beynəlxalq parlament diplomatiyasında yeri və rolu, bu təşkilat çərçivəsində əməkdaşlığın əhəmiyyəti, dünyanı narahat edən problemlərin həllində parlamentarilərin rolu barədə fikirlərini səsləndiriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova Baş Assambleyanın plenar iclasında çıxış edərək deyib ki, parlament diplomatiyasının əhəmiyyətinin artması ilə AİPA artıq parlamentləri bir araya gətirən, daha sıx əməkdaşlıq üçün yeni ideyalar və imkanlar yaradan əhəmiyyətli və uğurlu platformaya çevrilib. Onun sözlərinə görə, bu təşkilat təkcə üzv parlamentlər deyil, həm də dünyanın müxtəlif regionlarının parlamentləri arasında dialoqun və qarşılıqlı anlaşmanın inkişafına mühüm töhfə verir.

2022-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin AİPA-nın işində müşahidəçi statusunda iştirak etdiyini xatırladan spiker Sahibə Qafarova bunun Azərbaycanın Cənub-Şərqi Asiya ölkələri ilə çoxşaxəli əlaqələrini daha da inkişaf etdirmək niyyətini əks etdirdiyini, parlamentlərarası əməkdaşlığın isə bu əlaqələrin mühüm istiqaməti kimi qiymətləndirildiyini söyləyib. O bildirib ki, Azərbaycan Milli Məclisi təşkilata üzv parlamentlərlə əlaqələrini fəal şəkildə inkişaf etdirir, həmçinin AİPA ilə çoxtərəfli əlaqələri gücləndirir.

Spiker Sahibə Qafarova tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi 2023-cü ilin mart ayında AİPA ilə Əməkdaşlıq Memorandumu imzalayıb. Bu, institusional əməkdaşlığımızı inkişaf etdirmək və ümumi məqsədlərimizin reallaşmasına töhfə vermək niyyətimizin nümayişidir.

Baş Assambleyanın əsas mövzusu olan inklüziv inkişaf və dayanıqlılıq mövzusunun parlament müzakirələrinin gündəmindəki vacib bir məsələ olduğunu söyləyən Milli Məclisin Sədri qeyd edib ki, parlamentlər qanunvericilik, büdcə və nəzarət funksiyaları ilə bu prosesin əsas maraqlı tərəflərindən biridirlər. O diqqətə çatdırıb ki, inklüziv inkişaf və dayanıqlılıq Azərbaycanın da qəbul etdiyi strateji baxışdır. BMT-nin Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin həyata keçirilməsi bu baxışın mühüm elementi kimi qiymətləndirilir və milli inkişaf planları və strategiyaları Dayanıqlı İnkişaf Məqsədlərinə uğurla uyğunlaşdırılıb.

Çıxışında Azərbaycanın işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında həyata keçirdiyi nəhəng quruculuq və yenidənqurma işləri haqqında da danışan Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, bu ərazilərin dirçəldilməsi Azərbaycan hökumətinin inklüziv inkişafa və dayanıqlılığa yanaşmasının mühüm tərkib hissəsini təşkil edir. Spiker xatırladıb ki, bu ərazilər 30 il ərzində işğal altında qalıb və 2020-ci ildə işğaldan azad edilib. Tamamilə dağıdılmış həmin ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işləri artıq hökumətimizin bu regionlarda əlli mindən çox insanı məskunlaşdırmasına və onların ölkənin ümumi sosial-iqtisadi həyatına yenidən inteqrasiya etməsinə imkan verib.

*"Azərbaycan"*

# Gənclər və idman komitəsinin iclasında 2 məsələ müzakirə olunub



Sentyabrın 18-də Milli Məclisin Gənclər və idman komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Şahin İsmayılov iclası açaraq, qarşıdakı sessiyada komitənin fəaliyyətinə uğurlar arzulayıb və gündəliyə 2 məsələnin daxil edildiyini bildirib.

Komitə sədri əvvəlcə 2025-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Gənclər və idman komitəsində görülən işlər barədə məlumat verib. O qeyd edib ki, sessiya ərzində komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan 85 ərizə daxil olub və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına göndərilib. Həmçinin, komitə üzvləri vətəndaşlarla çoxsaylı görüşlər keçirib, onları narahat edən məsələlərin həlli istiqamətində tədbirlər görüblər.

Sonra Şahin İsmayılov Gənclər və idman komitəsinin qarşıdakı payız sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, iş planında qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin müzakirəsi, komitənin fəaliyyət istiqamətləri çərçivəsində ictimai dinləmələrin təşkili, vətəndaşlarla görüşlərin keçirilməsi və digər məsələlər öz əksini tapıb.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə sədrinin müavini Könül Nurullayeva, komitə üzvləri Asif Əsgərov, Vüqar İskəndərov, Eyvaz Qurbanov, Göydəniz Qəhrəmanov, Mahir Süleymanlı çıxış edərək rəy və təkliflərini bildiriblər.

İclasda komitənin ötən sessiya dövründə görülən işlər barədə hesabatı məqbul hesab olunub, qarşıdakı sessiya üçün iş planı təsdiqlənib.

*"Azərbaycan"*

# *Dövlət Komissiyası:* "Bu ilin 8 ayında 6 tona yaxın narkotik vasitə və psixotrop maddə müsadirə olunub"

Cari ilin yanvar-avqust ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.

İşçi Qrupundan AZƏRTAC-a bildirilib ki, hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 5 min 874 cinayət faktı aşkarlanıb. Onlardan 1818-i narkotik vasitələrin qanunsuz satışı, 3 min 890-ı narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 164-ü narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 2-si bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 5 ton 992 kiloqram 030,92 qram narkotik vasitələrin və psixotrop maddələrin 5 ton 306 kiloqram 678,863 qramını marixuana, 250 kiloqram 966,55 qramını heroin, 119 kiloqram 866,229 qramını tiryək, 60 kiloqram 593,938 qramını həşiş, 150 kiloqram 165,907 qramını digər narkotik vasitələr və 103 kiloqram 759,433 qramını psixotrop maddələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 5 min 183 ədəd metadon, 16 min 363 ədəd çətənə bitkisi, eləcə də 588,2 qram, 95 həb, 39 kapsul güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1041 hektar sahədən yaş kütləsi 294 ton 355 kiloqram olan 2 milyon 533 min 279 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Qanunsuz dövriyyədən çıxarılmış 5 ton 992 kiloqram 030,92 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 152 milyon 430 min manat kimi qiymətləndirilir.

# Yeni tikilən yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi olacaq



Sentyabrın 18-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Sadiq Qurbanov deputatlara fəaliyyətlərində uğurlar arzulayıb.

Komitə sədri əvvəlcə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində 2025-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabatı təqdim edib, sonra komitənin cari ilin payız sessiyası üçün iş planı barədə məlumat verib. Diqqətə çatdırılıb ki, sənəddə qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinə baxılması və digər məsələlər nəzərdə tutulub.

Daha sonra "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Baziqov məlumat verib. Bildirilib ki, yeni tikilən, yenidən qurulan və əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi olacaq, lakin bəzi bina kateqoriyaları (tarixi abidələr, yardımçı və müvəqqəti tikililər, istixanalar, anbarlar, istehsalat binaları, fərdi yaşayış evləri və s.) bu tələbdən istisna ediləcəkdir.

Gündəliyin növbəti məsələsi - "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında","Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) komitənin sədri Sadiq Qurbanov təqdim edib. Qeyd edilib ki, milli akkreditasiya qurumunun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə hazırlanan qanun layihəsi ilə uyğunluğu qiymətləndirən qurumların əhatə dairəsi genişləndirilir, səriştəlilik sınağı, validasiya və verifikasiya kimi yeni anlayışlar əlavə olunur, müvafiq qanunvericiliyə dəyişikliklər təklif edilir və bununla da akkreditasiya sisteminin beynəlxalq səviyyədə tanınması təmin edilir.

Sonra "Ozon qatını dağıdan maddələr haqqında" Monreal Protokoluna 2016-cı il 15 oktyabr tarixli Kiqali Düzəlişinin təsdiq edilməsi haqqında qanun layihəsi barədə məlumat verilib. Söylənilib ki, Kiqali Düzəlişi hidroflüorokarbonların (HFC) mərhələli azaldılmasını nəzərdə tutur. Bununla həm ozon qatının qorunması, həm də iqlim dəyişikliyi ilə mübarizə gücləndiriləcək və Azərbaycanın bu sənədə qoşulması ölkəmizin beynəlxalq iqlim öhdəliklərinin icrasına, COP29 kontekstində mövqeyinin möhkəmlənməsinə xidmət edəcəkdir.

Gündəliyin növbəti məsələsi - "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"na qoşulmaq barədə qanun layihəsi haqqında məlumat verən komitə sədri sənədin dövlətlər arasında təhlükəli kimyəvi maddələrin və pestisidlərin idxalı və ixracı ilə bağlı məlumat mübadiləsini təmin etmək, onların istifadəsi nəticəsində yarana biləcək risklərin azaldılmasına nail olmaq və insan sağlamlığının, ətraf mühitin qorunmasını gücləndirmək məqsədini daşıdığını bildirib.

Gündəlikdəki məsələlərin müzakirəsində komitənin sədr müavini Fatma Yıldırım, üzvləri Asif Əsgərov, Naqif Həmzəyev, Vüqar Rəhimzadə, Nigar Arpadarai, Rövşən Muradov, Eyvaz Qurbanov çıxış edərək fikirlərini söyləyiblər, təkliflərini irəli sürüblər.

İclasın sonunda ötən sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub, komitənin növbəti sessiya üçün iş planı təsdiqlənib və qanun layihələrinin hamısı baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

# Baş prokuror Naxçıvan Muxtar Respublikasında vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, sentyabrın 18-də baş prokuror Kamran Əliyev Naxçıvan Muxtar Respublikası prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib. Qəbulda iştirak edən 46 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 33-cü maddəsinə əsasən, "Əmək pensiyaları haqqında" Qanuna uyğun olaraq hərbi qulluqçulara, xüsusi rütbəli şəxslərə və dövlət qulluqçularına pensiya təyin edilərkən onların xidmət müddətinin (qulluq illərinin) hesablanması (qarşılıqlı nəzərə alınması) qaydasının şərh edilməsinə dair Bakı İnzibati Məhkəməsinin müraciətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Müraciətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun oktyabrın 7-nə təyin olunmuş iclasında baxılacaq.



# ABŞ Prezidentinin dövlətimizin başçısına yüksək ehtiramı

**Dövlətin inkişafı, beynəlxalq nüfuzu və xalqın rifahının yüksək olması təkcə iqtisadi və sosial-siyasi amillərlə deyil, həm də ona rəhbərlik edən şəxsin siyasi, mənəvi və liderlik keyfiyyətləri ilə birbaşa bağlıdır. Lideri güclü olan dövlətə dünyada da ehtiramla yanaşılır.**

Bu, bir tarixi həqiqətdir ki, liderə təmsil etdiyi ölkəyə görə hörmət bəslənildiyi kimi, ölkələrə də onları təmsil edən liderə görə qiymət verilir. Bu baxımdan Azərbaycan xalqı özünü rahat hiss edə bilər. Dünya siyasət meydanına Ulu Öndər Heydər Əliyev kimi dahi bir lider bəxş etmiş xalqımızın bu gün Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevlə qürur duymağa tam haqqı çatır.

Tərəddüd etmədən deyə bilərik ki, Prezident İlham Əliyev bu gün təkrarolunmaz siyasi manevrləri, uzaqgörən strategiyası və dəqiq hesablanmış addımları ilə XXI əsrin liderlik nümunəsini nümayiş etdirir. Dövlətimizin başçısının ən mürəkkəb ictimai-siyasi məqamlarda belə, düzgün və rasional qərar qəbul etmək bacarığı dünya liderləri tərəfindən yüksək qiymətləndirilir.

Bu, inkarolunmaz faktdır ki, dövlətimizin başçısının ünvanına ən nüfuzlu tribunalardan xoş sözlər səslənir. Dünyanın məşhur dövlət başçıları və siyasi xadimləri Prezident İlham Əliyevlə dostluq münasibətləri qurmağa, Azərbaycanla əməkdaşlığa xüsusi önəm verirlər. Cənab İlham Əliyev qlobal prosesləri obyektiv təhlil edən, reallıqları düzgün qiymətləndirən nadir dövlət başçılarından biridir. Sözsüz ki, hər bir xalqın, dövlətin strateji yolunu, siyasi taleyini, perspektivlərini müəyyənləşdirən həlledici anlar, tarixi əhəmiyyətə malik məqamlar var. Prezident İlham Əliyevi fərqləndirən başlıca cəhət bu məqamları vaxtında görüb qiymətləndirmək bacarığıdır.

Bu gün Azərbaycanla Birləşmiş Ştatlar arasında münasibətlər artıq ənənəvi diplomatik əməkdaşlıq çərçivəsini aşaraq, keyfiyyətcə yeni - strateji müttəfiqlik mərhələsinə yüksəlməkdədir. Xüsusilə Donald Trampın ikinci prezidentliyi dövründə Vaşinqtonun Cənubi Qafqaz siyasətində Azərbaycanın rolunun daha da artması, enerji təhlükəsizliyi, regional sabitlik və antiterror əməkdaşlığı kimi sahələrdə qarşılıqlı maraqların güclənməsi iki ölkə arasında münasibətlərin daha dərin, qarşılıqlı etimada əsaslanan bir platformaya keçdiyini sübut edir.

Donald Trampın yenidən prezident seçilməsindən sonra baş verən siyasi hadisələr iki lider arasında münasibətlərin yalnız rəsmi protokol səviyyəsində deyil, həm də şəxsi etimada söykəndiyini nümayiş etdirir. Prezident İlham Əliyevin bu ilin avqust ayında ABŞ Prezidenti Donald Trampın dəvəti ilə həyata keçirdiyi səfər, Ağ Evdə imzalanan sənədlər və dövlət başçılarının dialoqları bu strateji münasibətləri daha da möhkəmləndirdi.

ABŞ Prezidentinin dövlətimizin başçısına "Siz böyük lidersiniz" kimi yüksək qiymət verməsi həm Prezident İlham Əliyevə, həm də Azərbaycan xalqına verilən dəyərin bariz göstəricisidir. Bütün bunlar Prezident İlham Əliyevin peşəkar, uzaqgörən və praqmatik siyasətinin nəticəsi kimi dəyərləndirilməlidir. Fikrimizi əsaslandırmaq üçün bir qədər geriyə qayıdaq. Prezident İlham Əliyev hələ 2024-cü ilin yayında Şuşada təşkil olunan Qlobal Media Forumunda ABŞ-də keçiriləcək prezident seçkilərinə dair suala cavab verərkən Donald Tramp haqqında səsləndirdiyi müsbət fikirlərlə strateji baxışını və Vaşinqtonda baş verən siyasi proseslərə obyektiv yanaşma tərzini nümayiş etdirdi. Xatırladaq ki, o zaman D.Tramp hələ ABŞ Prezidenti deyildi və qarşıdan gələn seçkilərdə onun qələbəsi çoxlarının şübhə ilə baxdıqları bir məsələ idi. Prezident İlham Əliyev D.Trampın prezidentliyi dövründə ABŞ-nin yeni hərbi münaqişələrə qoşulmamasını, ailə və ənənəvi dəyərlərə önəm verməsini xüsusi vurğulayaraq, onun daxili və xarici siyasətindəki sabitlik amilinə diqqət çəkdi.

Dövlətimizin başçısı bu ilin mart ayında keçirilən XII Qlobal Bakı Forumu çərçivəsində "Euronews" televiziyasına verdiyi müsahibədə də ABŞ-Azərbaycan münasibətlərinə dair eyni mövqeyini bildirərkən xüsusi vurğuladı ki, ABŞ-nin əvvəlki administrasiyası və Azərbaycan arasında münasibətlərin pisləşməsindən məyusluq hissi keçirmişdik. Bu mövqeyin milli maraqlarımıza ədalətsiz yanaşmadan ibarət olduğunu vurğulayan dövlətimizin başçısı qeyd etmişdir: "Buna görə biz Tramp administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq". Bu açıqlama Azərbaycan tərəfinin strateji əməkdaşlığın bərpası və inkişafı istiqamətində möhkəm siyasi iradəsinin bir daha nümayişi oldu. Azərbaycan Prezidentinin dostluq və əməkdaşlıq çağırışlarına münasibətə ABŞ Prezidenti Donald Tramp Novruz bayramı münasibətilə dövlətimizin başçısına 2025-ci il aprelin 10-da ünvanladığı məktubda belə cavab vermişdi: "Ölkələrimiz uğurlara doğru sürətlə irəlilədikcə Sizinlə işləməyi səbirsizliklə gözləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır".

Donald Trampın ABŞ Prezideni seçilməsi ilə iki ölkə arasında diplomatik münasibətlərdə nəzərəçarpacaq dərəcədə dəyişikliklərin olması verilən mesajlardan hiss edilməkdəydi. Azərbaycan Prezidenti III Şuşa Qlobal Media Forumunda Donald Tranpın yenidən ABŞ Prezidenti seçilməsinə münasibət bildirərək vurğulamışdır: "Mən Trampın qələbəsini proqnozlaşdırmırdım. Sadəcə dedim: onun bizim kimi fundamental dəyərləri, o cümlədən ailə dəyərlərini bölüşdüyünü nəzərə alsaq, Azərbaycan xalqı üçün daha yaxşı olardı. O, müharibələrə başlamamış yeganə ABŞ Prezidentidir. Həm də hakimiyyətdə olduğu qısa müddətdə müharibələrə son qoyan bir adam olduğu aydın görünür. Biz həmçinin Azərbaycana və Ermənistana son nəticədə razılığa gəlməyə kömək etmək səylərinə görə ona çox minnətdarıq. O, beynəlxalq təhlükəsizlik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır. Əlbəttə, onun qələbəsi bir sıra səbəblərdən Azərbaycanda bizi çox sevindirir. Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, "Vaşinqton bataqlığı"nı dibinə qədər qurutsun".

Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə ABŞ Prezideti ilə bağlı dövlətimizin başçısının söylədiyi fikirləri Donald Tramp özünün "Truth Social" şəbəkəsində paylaşdı. Əslində bu, dövlətimizin başçısının şəxsiyyətinə, onun beynəlxalq aləmdə nüfuzuna və sözünün dəyərinə verilən qiymət idi. Xatırladaq ki, Tramp ilk dəfə idi ki, Cənubi Qafqaz ölkəsinin bir liderinin çıxışını paylaşırdı. Bu həm də Azərbaycan Prezidentinin Xankəndidən verdiyi mesajların dəqiq ünvanına çatmasının təsdiqi demək idi. Dövlət başçısı İlham Əliyev də öz növbəsində Donald Trampa təşəkkürünü bildirdi. Cənab İlham Əliyev bununla bağlı "X" hesabında paylaşım edərək yazmışdı: "Şuşa Qlobal Media Forumunda ABŞ-Azərbaycan tərəfdaşlığı və həmçinin Prezident Donald Trampın həm qlobal, həm də regionumuzda sülh gündəliyinə sadiqliyi ilə bağlı qeyd etdiyim fikirlərimi öz sosial media platformasında paylaşdığına görə ona minnətdarlığımı bildirmək istərdim. Mən bir daha Prezident Trampın bütün dünyada, o cümlədən regionumuzda sülhün və sabitliyin təşviqinə yönəlmiş baxışını və səylərini dəstəklədiyimizi vurğulamaq istəyirəm. Biz həmçinin ailə dəyərlərinin əhəmiyyəti kimi ortaq prinsipləri bölüşürük və onun prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətlərinin daha yüksək səviyyəyə qalxacağına ümid edirik. Ona bu məqsədə nail olmaq yolunda uğurlar arzulayırıq".

Artıq iftixarla deyə bilərik ki, ABŞ-Azərbaycan münasibətləri özünün ən yüksək mərhələsini yaşayır və strateji tərəfdaşlığa doğru sürətlə irəliləyir. İki ölkə arasında qurulan əlaqələr yalnız diplomatik münasibətlərlə məhdudlaşmır, həm də geniş və çoxşaxəli əməkdaşlıq sahələrini əhatə edir.

Azərbaycan-ABŞ strateji tərəfdaşlığı enerji, ticarət və tranzit dəhlizləri, süni intellekt və rəqəmsal infrastrukturun inkişafı, iqtisadi sərmayələr, həmçinin müdafiə sənayesi və silah satışını da əhatə edən təhlükəsizlik sahəsində əməkdaşlığı, eləcə də terrorizmə qarşı birgə mübarizə istiqamətlərini özündə birləşdirir.

Bu əməkdaşlığın institusional əsaslarını möhkəmləndirmək üçün yaradılacaq Strateji İşçi Qrupu regional bağlantılar infrastrukturunun və enerji sahəsində sərmayələrin genişləndirilməsi, regional iqtisadi-ticari əlaqələrin inkişafı, eləcə də süni intellekt və rəqəmsal texnologiyaların təşviqi kimi strateji əhəmiyyətli məsələlərlə məşğul olacaq.

Dünyanın ən böyük və nüfuzlu dövləti, supergücü ilə münasibətlərin qurulması Azərbaycan Prezidenti İlham Əliyevin uzun illər apardığı uğurlu xarici siyasəti, gərgin və uzaqgörən fəaliyyəti nəticəsində baş verib. Donald Trampın şəxsi imzası ilə İlham Əliyevə hədiyyə etdiyi fotoşəkillər və üzərində yazdığı xoş sözlər ABŞ Prezidentinin dövlətimizin başçısına olan yüksək ehtiramının təcəssümüdür. Biz bundan qürur duyuruq. ABŞ Prezidenti Donald Tramp Azərbaycanla "Truth Social" şəbəkəsində paylaşım edib. Donald Tramp özünün Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla birgə fotosunu paylaşaraq qeyd edib: "Azərbaycan və Ermənistan arasında müharibənin həllinə kömək etmək, eyni zamanda bu iki böyük lider - Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanla dost olmaq şərəfdir. Bu mənim üçün, amma daha da önəmlisi Amerika Birləşmiş Ştatları üçün əbədi dostluq olacaq". Prezident İlham Əliyevə verilən bu yüksək dəyər həm də dövlətimizə verilən dəyərdir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanla Avropa İttifaqı arasında mövcud əməkdaşlıq məsələləri müzakirə olunub

Xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Genişlənmə siyasəti üzrə komissarı Marta Kos ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyindən (XİN) məlumat verilib. Görüşdə Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında mövcud əməkdaşlıq məsələləri və planları müzakirə olunub. Vurğulanıb ki, münasibətlərin gücləndirilməsində liderlərarası təmasların əhəmiyyəti xüsusi əhəmiyyət kəsb edir.

Xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat marşrutları, habelə bərpaolunan enerji sahələri üzrə əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb. Bununla yanaşı, ətraf mühit və iqlim dəyişmələri ilə mübarizə istiqamətində Azərbaycan-Aİ əməkdaşlığının əhəmiyyəti qeyd olunub. Nazir Ceyhun Bayramov həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar barədə ətraflı məlumatlandırıb.

Ötən ay Vaşinqton şəhərində baş tutmuş tarixi görüş zamanı əldə olunmuş razılıqlardan xüsusi məmnunluq ifadə olunub. Regional normallaşma və sülh prosesinin təşəbbüskarı olan ölkəmizin bundan sonra da sülh gündəliyinin irəliləməsi istiqamətində səylərini davam etdirəcəyi diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Avropa İttifaqının komissarı Ağdama səfər edib

Avropa İttifaqının (Aİ) Genişlənmə siyasəti üzrə komissarı Marta Kos Ağdam şəhərinə səfər edib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonağa Ağdam, Füzuli və Xocavənd rayonlarında həyata keçirilən tikinti-quruculuq işləri, reallaşdırılan layihələr haqqında məlumat verib.

Aİ-nin komissarı Marta Kos sonra Ağdamın Sarıcalı kəndi ərazisində aparılan minatəmizləmə fəaliyyəti ilə tanış olub. O, Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumatlandırılıb. Bildirilib ki, 2020-ci ilin noyabr ayından 2025-ci il sentyabrın 17-dək Qarabağda və Şərqi Zəngəzurda aparılan minatəmizləmə əməliyyatları nəticəsində 227 min 713,3 hektar ərazi minalardan və müharibənin partlayıcı qalıqlarından təmizlənib. Piyadaəleyhinə 38 min 600 ədəd mina, tankəleyhinə 22 min 192 ədəd mina və 148 min 376 ədəd partlamamış hərbi sursat (PHS) olmaqla, ümumilikdə, 209 min 168 ədəd mina və müharibənin digər partlayıcı qalıqları aşkar edilərək zərərsizləşdirilib. Təmizləmə əməliyyatları əllə minaaxtarma, xüsusi təyinatlı mexaniki maşınların, minaaxtaran itlərin dəstəyi ilə icra edilir.

Avropa İttifaqının Genişlənmə siyasəti üzrə komissarı sonra ərazidən tapılan minaların partlayış yolu ilə zərərsizləşdirilməsini izləyib.

Qonağa Ağdamda həyata keçirilən tikinti-quruculuq işləri və reallaşdırılan layihələr barədə də məlumat verilib.

# *Aİ-nin komissarı:* "Azərbaycan dövlətinin həyata keçirdiyi bərpa və yenidənqurma işləri təqdirəlayiqdir"

"Ağdama, ümumilikdə, Qarabağa səfər etmək məndə dərin təəssürat yaradıb. Sizin dövlətinizin bu ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma işləri, uzun illər müharibədən zərər çəkmiş və dağıdılmış torpaqlarda yeni həyat qurmaq səyləri doğrudan da təqdirəlayiqdir. Hökumətinizin cəsarətlə yeni şəhərlərin, müasir infrastruktur və sosial obyektlərin inşasını həyata keçirməsini, insanların doğma yurdlarına qayıdışını təmin etməyə yönəlmiş addımlarını yüksək qiymətləndirirəm".

AZƏRTAC xəbər verir ki, bunu Ağdama səfər edən Avropa İttifaqının (Aİ) Genişlənmə siyasəti üzrə komissarı Marta Kos jurnalistlərə açıqlamasında bildirib.

O deyib: "Bu səfər mənim üçün önəmli məqamlarla yadda qaldı. Bir neçə məsələni vurğulamaq istərdim. Birincisi, heç bir müharibə yaxşı nəticə vermir. Müharibə insanların həyatını alt-üst edir, dərin yaralar açır və onun ağır nəticələri uzun illər qalır. İkincisi, sülh mümkündür. Sülh naminə müharibəni dayandırmaq, barışığa xidmət edən addımlar atmaq və gələcəyə bu baxış əsasında yönəlmək vacibdir. Azərbaycan və Ermənistanın atdığı addımlar bunun nümunəsidir. Üçüncüsü, Avropa İttifaqı bu prosesə dəstək göstərməyə hazırdır".

"Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin yeni mərhələyə yüksələcəyinə inanır və bu əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağına əminəm", - deyə Marta Kos bildirib.

# Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının növbəti iclası keçirilib

Sentyabrın 18-də Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Müşahidə Şurasının sədri Dağbəyi İsmayılovun rəhbərliyi ilə keçirilən görüşdə Müşahidə Şurasının üzvləri və Agentliyin İcraçı direktoru iştirak ediblər.

Görüşdə Agentliyin son dövrdə həyata keçirdiyi fəaliyyətlər, qlobal əməkdaşlıq istiqamətində atılan addımlar və təşkil edilən beynəlxalq tədbirlərin əhəmiyyəti müzakirə olunub. Eyni zamanda, yaxın müddətdə reallaşdırılması nəzərdə tutulan mühüm beynəlxalq layihələrin təşkilinə dair fikir mübadiləsi aparılıb.




Müzakirələr zamanı rəqəmsal transformasiya dövründə medianın yeni reallıqları, informasiya mühitində yaranan çağırışlar və bu şəraitdə davamlı inkişafın təmin olunması yolları diqqət mərkəzində olub. Şura üzvləri media sektorunda müasir yanaşmaların tətbiqi, innovativ imkanların dəyərləndirilməsi və beynəlxalq təcrübədən faydalanmağın vacibliyini vurğulayıblar. İclasda həmçinin Agentliyin gələcək fəaliyyət istiqamətləri, tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi və qlobal informasiya mühitində Azərbaycanın mövqeyinin möhkəmləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

# *Ukraynalı ekspert:* "Azərbaycan regional sabitlik və enerji təhlükəsizliyində əsas oyunçudur"

"Ərəb ölkələrinin Azərbaycana artan marağı onun regional və qlobal siyasətdə rolundan irəli gəlir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ukraynalı ekspert İvan Us bildirib.

Onun sözlərinə görə, BƏƏ və digər ərəb ölkələrinin Azərbaycana marağının artması təsadüfi deyil. Onlar beynəlxalq arenada geosiyasi çəkilərini gücləndirmək məqsədilə etibarlı tərəfdaşlarla əlaqələr qurmağa çalışırlar və bu baxımdan Azərbaycan onlar üçün mühüm ölkəyə çevrilib.

Ekspert vurğulayıb ki, son illərdə Azərbaycanın regional və qlobal siyasətdə mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Azərbaycan regionda yalnız sabitləşdirici rol oynamır, həm də mühüm beynəlxalq təşəbbüsləri ilə diqqət çəkir. Bu isə ərəb ölkələrinin marağını daha da artırır.



O əlavə edib ki, hazırda ərəb dünyasının prioritetlərindən biri Suriyanın bərpasıdır və əldə olunmuş razılaşmalara görə, bu prosesdə Azərbaycanın da mühüm rolu olacaq. Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfələr və balanslı siyasəti onu bu prosesdə etibarlı tərəfdaş kimi ön plana çıxarır.

"Ərəb ölkələrinin Azərbaycana marağının digər əsas səbəbi enerji amilidir. Onlar başa düşürlər ki, Azərbaycanla əməkdaşlıq edərək Türkiyə üzərindən Avropaya yeni enerji marşrutları formalaşdırmaq mümkündür. Bu isə Avropa bazarında Rusiyanın mövqelərinin əvəzlənməsinə xidmət edə bilər", - deyə İvan Us vurğulayıb.

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

# Konstitusiya və Suverenlik İli 2025

# Zəfərin təntənəsi, suverenliyin nidası

Beş il öncə, 2020-ci il sentyabrın 27-də başlayıb noyabrın 8-də möhtəşəm Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsi tariximizdə yeni səhifə açdı.

Bu möhtəşəm qələbə Azərbaycan xalqını daha da mətnləşdirdi.

Azərbaycanın ən yeni tarixini yazan Müzəffər Ali Baş Komandan İlham Əliyev 30 il işğal altında qalan torpaqlarımızın xilaskarı kimi xalqın qəlbində heykəlini ucaltdı, Azərbaycanın şanlı tarixini yazdı.

Xalq-ordu-dövlət birliyinin bariz təcəssümü olan "dəmir yumruq" əməliyyatı Azərbaycanın hansı gücə sahib olduğunu dünyaya sübut etdi. Ən əsası da odur ki, 30 il işğalçı Ermənistana havadarlıq edən, illərlə cəbhə xəttində ona təxribatlar etməyə imkan yaradan bəzi qüvvələr bu dəfə prosesə müdaxilə edə bilmədilər. Dünyanın ən böyük siyasi təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasının illər öncə qəbul etdiyi və 2020-ci ilə qədər kağız üzərində qalan qətnamələrinin icrasını Azərbaycan güc yolu ilə reallığa çevirdi. Azərbaycan Prezidenti cənab İlham Əliyev isə bu qələbə ilə dünyaya bəyan etdi ki, yaşadığımız müasir dövrdə hüququn əsasları deyil, güc amili ən mühüm silahdır.

Hər savaşın sonunda müqavilələr, sənədlər imzalanır. İkinci Qarabağ savaşı da üçtərəfli (Rusiya, Azərbaycan və Ermənistan) Bəyanatın imzalanması ilə yekunlaşdı. Müharibənin dayandırılması üçün yalvaran Ermənistan müqaviləni imzalayarkən boynuna öhdəliklər götürdü.

Təəssüflər olsun ki, qazanılmış hərbi-siyasi qələbə nəticəsində regionda yaranmış yeni reallıqlarla barışmayan Ermənistan və onu himayə edənlər illüziyalara qapılaraq ölkəmizə qarşı ərazi iddialarından əl çəkmir, yeni revanşist iddialarla çıxış edirdilər. Ermənistan imzaladığı üçtərəfli Bəyanatdan (faktiki olaraq Kapitulyasiya aktı) irəli gələn öhdəliklərini yerinə yetirmir, icra etməli olduğu müddəaları kobud şəkildə pozmağa davam edirdi. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını ərazimizdən çıxarmırdı. İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardan istifadə olunurdu. Müharibədən sonra Azərbaycan dəfələrlə Ermənistana davamlı sülh üçün təkliflər irəli sürsə də, məğlub ölkə bundan boyun qaçırırdı.

2021-ci ildə Azərbaycan və Ermənistanda sərhəd delimitasiyası üzrə işçi qruplar yaradılır. Danışıqlar böhran və bölgədə ara-sıra baş verən silahlı toqquşmalarla müşahidə olunur. 2021-ci ilin noyabrında sərhəddə birinci silahlı toqquşma baş verir. Müharibədən sonra ən qanlı toqquşma 2022-ci ilin sentyabrında sərhəddə baş verir.

Bütün bunlarla yanaşı, Ermənistan razılaşdırılmış və qəbul olunmuş öhdəliklərdən sui-istifadə edərək humanitar məqsədli "Laçın" dəhlizindən çirkin hərbi-siyasi niyyətləri üçün istifadə edərək qanunsuz silah-sursat daşımağı dayandırmır. Bu azmış kimi, ermənilər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdə faydalı qazıntı yataqlarının qanunsuz istismarını davam etdirirlər. Bununla yanaşı, həmin yataqlarda keçirilməsi planlaşdırılan ilkin monitorinqin də baş tutmaması üçün təxribatlar törədirlər.

Buna etiraz əlaməti olaraq 2022-ci ilin dekabr ayından ölkəmizin qeyri-hökumət təşkilatları nümayəndələrinin, ekofəalların və gənc könüllülərin birgə iştirakı ilə Laçın-Xankəndi yolunda dinc aksiyaya start verilir. Tam 138 gün davam edən bu aksiya ermənilərin qanunsuz əməllərinin qarşısını alır.

Nəhayət, 2023-cü il aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazisində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar yeni vəziyyət formalaşır. Bununla da Azərbaycan sərhəd bütövlüyünü təmin etmiş olur. 2022-ci il dekabrın 12-dən etibarən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində başlanan dinc etiraz aksiyası aprel ayının 28-də dayandırılır. "Laçın" sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə revanşistərin qeyri-qanuni yolla silah-sursat daşımasının qarşısı rəsmən alınır.

Sərhəd-keçid məntəqəsinin açılışını Müzəffər Ai Baş Komandan İlham Əliyev 2023-cü il avqustun 26-da azadlığın təntənə günləri çərçivəsində Laçın Şəhəri Günü bayram tədbirində belə dəyərləndirib: "Bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulub. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq".

Yenə də Azərbaycana qarşı hücumların ardı-arası kəsilmir. Ermənilərin böyük havadarları dünyaya car çəkirlər ki, guya Azərbaycan "humanitar fəlakət" yaradır.

Əlbəttə ki, bu hücumlarda məqsəd, Azərbaycana təzyiq etməklə sərhəd-buraxılış məntəqəsinin ləğv edilməsinə nail olmaq idi. Hətta bununla bağlı beynəlxalq məhkəmələrə baş vursalar da, çıxarılan qərarlar Azərbaycanın lehinə oldu. Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı bunun əyani təzahürüdür. Həmin sənədə əsasən, Ermənistanın sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbi rədd edildi. Bu, bir daha göstərdi ki, Azərbaycanın bu addımı beynəlxalq hüququn tələblərinə uyğundur. Avqustun 16-da BMT Təhlükəsizlik Şurası ermənilərin yaşadığı Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun guya "bağlanmasından" sonra yaranmış "humanitar böhranın" müzakirəsi üçün keçirilən təcili iclasda da Ermənistan və ona dəstək verənlər məqsədlərinə çatmadılar.

Lakin nə Ermənistan, nə də onun ən böyük himayədarı Fransa siyasi təxribatlardan əl çəkdi. Fransanın "humanitar yardım" adı ilə həyata keçirdiyi növbəti təxribatın baş tutmaması da deyilənlərin təsdiqidir. Belə ki, Azərbaycan Fransadan göndərilən "humanitar yükü" Qarabağa buraxmadı. Fransadan göndərilən 10 avtomobil iyulun 26-da sərhəddə gözləyən "Spayka" avtomobillərinin ardınca düzülmüş vəziyyətdə qaldı. Əgər həqiqətən də Qarabağda yaşayan erməniəsilli şəxslər "humanitar böhran" vəziyyəti ilə üzləşmişdilərsə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən onların ehtiyaclarını qarşılamaq məqsədilə göndərilən humanitar yardımı almaq üçün adekvat addım atar və Ağdam-Xankəndi yolundan Qarabağ bölgəsinə yüklərin çatdırılmasına etiraz etməzdilər.

Revanşistlər irimiqyaslı hərbi təxribatlar və terror hücumları törədir. Erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid olurlar.



Ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulur. Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanır. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki şəxs də həlak olur.

Qeyri-qanuni erməni silahlı birləşmələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edilir. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılır.

Antiterror tədbirləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. Əməliyyat tədbirləri nəticəsində Xocalı rayonu və Qırmızı Bazar istiqamətində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbitəyinatlı obyektləri, separatçılara məxsus P-18 radiolokasiya stansiyası (RLS), Ağdərə istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 5-ci müdafiə briqadasına məxsus sursat anbarlarından biri, sığınacaq və döyüş texnikası, mülki infrastrukturumuzu hədəfə alan Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus top qurğusu bölmələrimizin sərrast atəşi nəticəsində məhv edilir, Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus hərbi təyinatlı radiotexniki qovşaq zərərsizləşdirilir.

Antiterror tədbirləri zamanı Azərbaycan hərbçiləri böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərirlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərərək qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə edirlər.

Bir gün ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı.

Azərbaycan Ordusu, cəsur əsgərlərimiz isə 44 günlük İkinci Qarabağ müharibəsində olduğu kimi, bu əməliyyat tədbirlərində heç bir mülki obyektə, mülki əhaliyə ziyan vurmadı. Azərbaycanın suveren ərazisində həyata keçirdiyi kompleks tədbirlərlə bölgədə olan separatçı qüvvələr məhv edildi. Böyük xülyalarla yaradılan qondarma rejim isə tarixin arxivinə göndərildi.

Cəmi 23 saat 43 dəqiqə çəkdi antiterror tədbirləri. Bu 23 saatın mahiyyətində ikiəsrlik münaqişənin, otuzillik savaşın, onilliklər boyu davam edən separatizmin "dəmir yumruq"la birdəfəlik məhvi dayanır.

Bu bir günün timsalında Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tam təminatı dayanır.

Bu bir gün Şanlı Zəfərimizin böyük nidası oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli ordusu cəmi 23 saat 43 dəqiqəyə həyata keçirdiyi antiterror tədbirləri ilə 200 illik erməni xülyasını məhv edərək Azərbaycanın suverenliyini tam təmin etdi.

Nəyi nə zaman etməyi çox yaxşı bilən Prezident İlham Əliyev bununla da daha bir tarixi missiyasını gerçəkləşdirərək üçrəngli bayrağımızı bütün Azərbaycan torpaqlarında dalğalandırdı.

Bir sözlə, Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən Ermənistan ordusunun Qarabağda qalmış bölmələrinin, 30 ildən artıqdır ki, burada at oynadan separatçıların sentyabrın 21-də ağ bayraq qaldırmaqdan başqa yolları qalmadı. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə söykənərək Qarabağda öz milli haqqını təmin etdi. Bu hadisə Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinin, xalqımızın milli maraq və mənafelərini layiqincə təmin etməsinin növbəti təntənəsi oldu.

Bu il sentyabrın 14-də Prezident İlham Əliyev Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə bir daha bu şanlı tarixi xatırlatdı: "Bütün dünyaya sübut etmişik ki, güclü xalqıq, iradəli xalqıq, döyüş meydanında da qələbə qazanmışıq, sülhə də hər zaman hazır idik. Amma sülh ədalətli sülh olmalı idi, beynəlxalq hüquq və tarixi ədalət üzərində sülh olmalı idi. Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi. 2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik. Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır".

Müzəffər Ali Baş Komandan bəyan etdi ki, 44 gün və bir gün - heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmayıb.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Ədalət bərpa olundu

## Bununla Qarabağda separatizmin kökü tamamilə kəsildi

**İki il bundan əvvəl - 2023-cü il sentyabrın 19-u və 20-də Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 23 saat 43 dəqiqə davam edən və uğurla başa çatan antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyi və ərazi bütövlüyü təmin edildi. Bu əməliyyat regionda sülh və sabitliyin bərqərar olunması baxımından tarixi əhəmiyyət daşıyır.**

Prezident İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə həmin gün "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü" elan olunması da əməliyyatın milli dövlətçilik baxımından nə qədər böyük əhəmiyyətə və dəyərə malik olduğunu bir daha təsdiqləyir.

İkinci Qarabağ müharibəsinin bitməsindən sonra imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, Ermənistan silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsini tərk etməli idi. Lakin 3 il ərzində bu öhdəlik yerinə yetirilmədi və bölgədə 10 mindən artıq erməni silahlı birləşməsi və qanunsuz silahlı dəstələr mövcudluğunu davam etdirdi. Azərbaycan tərəfi bu müddət ərzində məsələni sülh yolu ilə həll etməyə, reinteqrasiya prosesini irəlilətməyə çalışsa da, təəssüf ki, Ermənistan tərəfi əksinə olaraq bölgəyə yeni silah və canlı qüvvə cəlb edir, hərbi istehkamlar qurur, separatçılar isə "prezident seçkiləri" və "parlament bəyanatları" ilə qanunsuz hərəkətlərini davam etdirirdilər. Bu addımlar təkcə Azərbaycanın suverenliyinə deyil, həm də regionda sülh və sabitliyə ciddi təhdid yaradırdı.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə Ermənistan rəhbərliyinə, beynəlxalq ictimaiyyətə və regionda vasitəçilik edən qüvvələrə xəbərdarlıq edərək Qarabağdakı erməni hərbi mövcudluğunun qanunsuz olduğunu bəyan etmişdi. Buna baxmayaraq, Ermənistan danışıqlardan yayınmaqla və təxribatlarını davam etdirməklə prosesi dalana dirəyirdi. Günaşırı sərhəddə baş vermiş qanlı toqquşmalar, 2023-cü ilin mart-may aylarında Şuşa istiqamətində və sərhəd bölgəsində həyata keçirilmiş atəşlər gərginliyi daha da artırırdı. Üstəlik, Ermənistanda istehsal olunmuş yeni minaların Qarabağ ərazisinə gizlin yollarla daşınması və basdırılması müharibədən sonra da terror fəaliyyətinin davam etdirildiyinin görünən tərəfi idi.

Bu ərəfədə Şuşa-Laçın yolunda Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekofəalların keçirdiyi etiraz aksiyaları beynəlxalq ictimaiyyətin diqqətini Qarabağdakı təbii sərvətlərin qanunsuz istismarına və ətraf mühitə vurulan ziyana yönəltdi. Daha sonra ermənilərin Qarabağa qanunsuz silah və texnika daşımasının qarşısını almaq üçün 2023-cü il aprelin 23-də Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında "Laçın" Nəzarət-Buraxılış Məntəqəsi yaradıldı. Bu addımlar Azərbaycanın Qarabağda reinteqrasiyanı dinc yolla həyata keçirmək niyyətinin, eyni zamanda suveren hüquqlarını qorumaq əzminin göstəricisi idi.

2023-cü il 19 sentyabr səhəri Ermənistan kəşfiyyat-diversiya qrupları Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda əvvəlcədən yerləşdirdikləri minaları partlatdılar. Partlayış nəticəsində mülki şəxslər və Daxili Qoşunların hərbi qulluqçuları həlak oldu. Ardınca ordumuzun mövqeləri müxtəlif çaplı silahlardan atəşə tutuldu, Ağdam və Şuşada iki mülki şəxs daha həyatını itirdi.

Bu terror aktları və genişmiqyaslı hərbi təxribatlar Azərbaycanın suverenliyinə və təhlükəsizliyinə birbaşa təhdid idi. Azərbaycan Ordusu üçtərəfli Bəyanatın icrasını təmin etmək və ərazilərində konstitusiya quruluşunu bərpa etmək məqsədilə lokal xarakterli antiterror əməliyyatına başladı. Əməliyyat ağır relyef və uzun illər qurulmuş mühəndis istehkamları şəraitində aparılsa da, yüksək peşəkarlıq və texnoloji üstünlük sayəsində Azərbaycan Ordusu uğurlar qazandı. 23 saat 43 dəqiqə davam edən döyüşlərdə düşmənin ön və dərinlik mövqeləri, uzunmüddətli atəş nöqtələri, hərbi obyektləri dəqiq zərbələrlə sıradan çıxarıldı.

Azərbaycan dövləti əməliyyat zamanı humanizm prinsiplərinə sadiq qalaraq beynəlxalq humanitar hüquq normalarına tam riayət etdi. Əhalinin təhlükəsizliyi təmin olundu, tibbi və sosial yardımlar göstərildi, qadınlar, uşaqlar, yaşlılar və xəstələr xüsusi qayğı ilə qorundu. İctimai, sosial, tibbi, dini və digər mühüm obyektlərin mühafizəsi təşkil edildi.

Əməliyyat zamanı mülki şəxslər zərər görməsin deyə zərbələr yalnız hərbi obyektlərə endirildi. Müdafiə Nazirliyi bölgədə yaşayan erməni sakinləri SMS və səsgücləndiricilər vasitəsilə xəbərdar edərək onları hərbi obyektlərdən uzaq durmağa çağırdı. Bu, Azərbaycanın beynəlxalq humanitar hüquq normalarına sadiqliyinin və mülki əhalinin həyatına verdiyi dəyərin bariz nümunəsi idi.

Sonda erməni separatçıları ağ bayraq qaldıraraq təslim oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti əsasında atəşkəs razılaşması əldə olundu. 20 sentyabr saat 13:00-da əməliyyat dayandırıldı və qeyri-qanuni silahlı dəstələrin, Ermənistan silahlı qüvvələrinin tam tərk-silah olunması və Azərbaycan ərazilərini tərk etməsi, bütün silah-sursatın və ağır texnikanın təhvil verilməsi, bu prosesin Rusiya sülhməramlıları ilə əlaqələndirilməklə həyata keçirilməsi şərtləri ilə tədbirlər həyata keçirildi.

Antiterror əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin bütün birləşmələri Qarabağdan çıxarıldı, qeyri-qanuni silahlı dəstələr buraxıldı, Qarabağ bölgəsində Azərbaycan Respublikasının suverenliyi və konstitusiya quruluşu tam bərpa edildi. Bu əməliyyat Azərbaycanın dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı oldu. Qədim tarixi, zəngin maddi və mənəvi irsi, özünəməxsus mədəniyyəti, əsrarəngiz təbii-coğrafi şəraiti, tükənməz sərvətləri olan ölkəmizdə, xüsusən də Qarabağda 30 ilə yaxın davam edən işğal və separatizmə son qoyuldu, respublika ərazisində paralel silahlı strukturların mövcudluğu aradan qalxdı. Azərbaycan xalqının milli birliyi və dövlətinə inamı daha da möhkəmləndi.

Bu əməliyyatla Azərbaycan həm beynəlxalq hüquqa, həm də regionda sülh və sabitliyə sadiqliyini nümayiş etdirdi. Dövlət suverenliyimizin bərqərar olduğu hər qarış torpaqda bu gün Azərbaycan bayrağı əzəmətlə dalğalanır. Bu Zəfər dövlət müstəqilliyinin və milli iradənin simvolu kimi Azərbaycan tarixində əbədi yaşayacaq.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*




# Konstitusiya və Suverenlik İli 2025



**2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunması həm hüquqi-siyasi, həm də iqtisadi baxımdan dərin mənalar daşıyır. Bu qərar Azərbaycanın suverenliyinin və hüquqi əsaslarının möhkəmləndirilməsi ilə yanaşı, ölkənin iqtisadi müstəqilliyinin və milli sərvətlər üzərində tam nəzarətinin təmin olunması istiqamətində vacib mesajlar verir.**



# Böyük Zəfərdən Böyük qayıdışa uzanan yol

## Qarabağda dirçəlişin salnaməsi

Bu il Azərbaycan Konstitusiyasının qəbul olunmasının 30 ili, 44 günlük Vətən müharibəsindəki Zəfərin isə 5 ili tamam olur. Müstəqillik dövrünün əsas hüquqi sənədi olan ana qanunumuzda dövlətin idarəetmə qaydaları və ölkənin iqtisadi müstəqilliyinin hüquqi əsasları müəyyənləşdirilib. Uzun illər işğal altında qalan Qarabağın azad olunması isə bu prinsiplərin bütün ölkə ərazisində tətbiqinə real şərait yaradıb. Artıq işğaldan azad olunmuş ərazilərdə də dövlətin iqtisadi qanunları, inkişaf strategiyaları və sahibkarlıq imkanları Konstitusiya normaları əsasında həyata keçirilir ki, bu da "Konstitusiya və Suverenlik İli"nin mahiyyətini daha önəmli və aktual edir.

Bu baxımdan Azərbaycanın Konstitusiyası iqtisadi münasibətləri və mülkiyyət formalarını aydın şəkildə tənzimləyir. 13-cü maddədə deyilir: "Təbii sərvətlər, torpaq, su, fauna və digər sərvətlər dövlətin mülkiyyətindədir". Bu müddəa iqtisadi suverenliyin hüquqi zəmanətidir. Lakin uzun illər ərzində işğal altında olan Qarabağ və ətraf rayonlarda Azərbaycan dövləti hüquqlarını reallaşdıra bilmirdi. 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ildə keçirilmiş antiterror tədbirləri nəticəsində həmin ərazilər üzərində Azərbaycanın tam suverenliyi bərpa olundu. Bu qələbə Qarabağda siyasi, iqtisadi və hüquqi suverenliyin real tətbiqi deməkdir.

Bəllidir ki, işğaldan azad olunmuş ərazilər Azərbaycanın ən zəngin iqtisadi potensiala malik regionlarındandır. Torpaq ehtiyatları, su resursları, kənd təsərrüfatı imkanları, turizm potensialı və bərpaolunan enerji mənbələri baxımından Qarabağ və Şərqi Zəngəzur ölkə iqtisadiyyatına mühüm töhfə verir. 2021-ci ildən etibarən Azərbaycan dövləti burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verib. Yollar çəkilir, hava limanları inşa olunur, elektrik və su xətləri bərpa edilir. Eyni zamanda "ağıllı kənd" layihələri reallaşdırılır, "yaşıl enerji" konsepsiyası tətbiq edilir, ictimai xidmətlər və idarəetmə sistemi mərhələli şəkildə qurulur. Bütün bu proseslər bölgənin müasir iqtisadi və sosial məkana çevrilməsinə xidmət edir. Həmin layihələr Konstitusiyada təsbit olunmuş iqtisadi idarəetmə prinsiplərinin bərpa olunmuş ərazilərdə tətbiqinin bariz nümunəsidir və Azərbaycan dövləti burada öz iqtisadi suverenliyini real addımlarla həyata keçirir.

Bütün diqqətləri özünə çəkən böyük yenidənqurma işlərinin arxasında isə Prezident İlham Əliyevin qətiyyətli liderliyi və strateji baxışı dayanır. Dövlət başçısı işğaldan azad olunmuş ərazilərin sürətli bərpasını milli prioritet elan edərək, Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialını reallaşdırmaq üçün konkret plan və proqramlar müəyyənləşdirib. Onun bilavasitə təşəbbüsü ilə burada logistika və sənaye mərkəzləri, turizm infrastrukturunun qurulması sürətlə davam etdirilir. Dövlət başçısının həmin istiqamətdə apardığı siyasət nəticəsində azad olunmuş bölgələr ölkənin iqtisadi xəritəsində yeni bir dinamika yaradır. Ağdam, Cəbrayıl, Zəngilan, Füzuli, Laçında yaradılan sənaye zonaları, beynəlxalq hava limanları, strateji yollar yerli əhəmiyyət daşımaqla Azərbaycanın regional və qlobal logistik mövqeyini də gücləndirir.

Əslində, bərpa prosesi yalnız infrastrukturla məhdudlaşmır. Keçmiş məcburi köçkünlərin doğma torpaqlara dönüşü və məşğulluğun təmin olunması, eləcə də kənd təsərrüfatı sahələrinin canlandırılması və sahibkarlığın təşviqi istiqamətində ciddi addımlar atılır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin ərazilər müasir və davamlı iqtisadi sistemlərə malik yeni yaşayış məkanlarına çevrilir. Bütün addımlar ölkə daxilində regional inkişaf balansının bərpasına, urbanizasiya ilə kənd təsərrüfatının düzgün sintezinə və regional iqtisadi canlanmanın davamlı, sabit əsaslar üzərində qurulmasına imkan yaradır. Bu mövqe Azərbaycanın iqtisadi suverenliyini gücləndirir, həmçinin bölgədə dayanıqlı sülhün və sabitliyin iqtisadi əsaslarını da formalaşdırır. Çünki Prezident regionların inkişafını yalnız lokal bir məsələ kimi deyil, bütövlükdə Azərbaycanın iqtisadi gücünün və suverenliyinin möhkəmlənməsi kimi qiymətləndirir. Onun davamlı səfərləri, təməlqoyma mərasimləri və ictimaiyyətə verdiyi mesajlar bu yanaşmanın strateji inkişaf olduğunu göstərir. Bu mənada İlham Əliyevin Füzuli, Xocalı, Hadrut, Xocavənd və Xankəndiyə etdiyi son səfərləri prosesin davamlı xarakter daşıdığını bir daha sübut edir. Dövlət başçısı hər səfərində hansısa bir layihənin təməlini qoyur, regionun gələcək inkişaf prioritetlərini şəxsən elan edir. Prezidentin bu bölgələrə ayaq basması və orada iqtisadi dirçəliş prosesinə şəxsən nəzarət etməsi suverenliyin real və praktiki ifadəsi, torpağa qayıdışın, həyatın və quruculuğun simvoludur.

Dörd ildən çoxdur ki, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi Azərbaycanın ən böyük dövlət layihəsinə çevrilib. Təkcə 2020-ci ildən indiyə qədər (2025-ci il də nəzərə alınmaqla) bu bölgələrin bərpasına dövlət büdcəsindən 22 milyard manata yaxın vəsait ayrılıb. Cari ilin büdcəsində isə bərpa-quruculuq işlərinə 4 milyard manat nəzərdə tutulub. Ayrılan hər manat, əslində, bir parça torpağın canlanmasına, bir kəndin dirçəlməsinə, bir ailənin doğma yurda dönüşünə sərf olunur. Bu prosesin əsas istiqamətlərindən biri olan "Böyük Qayıdışa dair I Dövlət Proqramı" planlı şəkildə davam edir. Proqramın birinci mərhələsinin 2026-cı ilin sonunadək tamamlanması nəzərdə tutulub. Həmin mərhələdə təxminən 140 min keçmiş məcburi köçkünün doğma yurdlarına qayıtması hədəflənib. Bu, əlbəttə fiziki qayıdış deyil, insanların yenidən həyata, torpağa və kimliyə bağlanmasıdır.

Bütün sadalananlar göstərir ki, Azərbaycan müstəqil iqtisadi siyasət yürüdür, dövlət olaraq inkişaf prioritetlərini özü müəyyənləşdirir. Ölkədə maliyyə və vergi sistemi Konstitusiya prinsiplərinə uyğun fəaliyyət göstərir. Bərpaolunan ərazilərdə konstitusion əsaslarla yaradılan iqtisadi mühit sahibkarlar və investorlar üçün təhlükəsiz və şəffaf platformadır. Burada mülkiyyət hüququnun qorunmasına zəmanət verilir, sahibkarlıq fəaliyyəti üçün hüquqi və infrastruktur təminatı yaradılır. Qarabağ və Şərqi Zəngəzurda yaradılan sənaye parkları, aqroparklar və sərbəst iqtisadi zonalar Azərbaycanın iqtisadi suverenliyini daha da gücləndirir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" kimi qeyd olunması bu baxımdan gələcəyə yönəlik hüquqi zəmanətin gücləndirilməsinə xidmət edir. Dövlətin uzunmüddətli iqtisadi strategiyası Qarabağda "yaşıl iqtisadiyyat", rəqəmsal idarəetmə, dayanıqlı kənd təsərrüfatı və rəqabətli sənaye modelləri əsasında qurulur.

Bütün bunlar ona dəlalət edir ki, Azərbaycanda hüquqi suverenliklə iqtisadi suverenlik bir-birindən ayrılmazdır. Qarabağ və Şərqi Zəngəzurun bərpası zamanı həm hüquqi prinsiplərin, həm də iqtisadi strategiyanın paralel şəkildə tətbiqi göstərdi ki, Azərbaycanın gücü yalnız əsgəri və siyasi sahədə deyil, maliyyə, idarəetmə və sosial təşkilatlanma sahəsində də özünü sübut edir. Hazırkı inkişaf modeli hüquqla iqtisadiyyatın vəhdətinə söykənir. Bu model təkcə indiki dövr üçün deyil, gələcək nəsillər üçün də sabit, dayanıqlı və güclü bir dövlətin əsasını qoyur. Azərbaycan artıq ərazilərinə, eləcə də iqtisadi sərvətlərinə, inkişaf yoluna və gələcəyinə sahibdir. Konstitusiyanın təmin etdiyi hüquqi zəmin və Prezidentin liderliyi ilə aparılan iqtisadi strategiya ölkəmizi regionda sabitlik və tərəqqi mərkəzinə çevirir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Dövlət suverenliyi mübarizəsinin ən yüksək zirvəsi

Azərbaycan əsrlər boyu müxtəlif çətinliklər və sınaqlarla üzləşib. Son 30 ildə isə ölkəmiz ağır bir problemin - qondarma Qarabağ münaqişəsinin həlli üçün əzmlə mübarizə aparıb. Bu müddət ərzində Azərbaycan xalqı öz haqqını bərpa etmək və torpaqlarını işğaldan azad etmək üçün böyük səylər göstərib. Ölkəmizin bu mübarizəsi həm tarixi ədalətin bərpası, həm də dövlət suverenliyinin möhkəmləndirilməsi baxımından əhəmiyyətli bir mərhələ olub. Bu mübarizənin zirvəsi isə 44 günlük Vətən müharibəsində əldə olunan şanlı qələbə oldu.

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, müharibədən əvvəl Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı danışarkən Prezident İlham Əliyev hər zaman açıq şəkildə demişdir ki, Azərbaycan torpaqlarında ikinci erməni dövləti olmayacaq. Vətən müharibəsi zamanı xarici mediaya verdiyi müsahibələrdə də dövlətimizin başçısı bu qəti mövqeyini dəyişmədən, Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına heç vaxt icazə verilməyəcəyini vurğulamışdı.

K.Bayramov qeyd edib ki, 44 günlük hərbi əməliyyatlar nəticəsində diz çökərək kapitulyasiya edən Ermənistan və Qarabağdakı separatçı qruplaşmalar nə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərindən, nə də müharibədən dərs çıxarmaq istəmişdilər: "Əksinə, Ermənistan razılaşmanı yerinə yetirmək əvəzinə, gizli yollarla Qarabağdakı separatçılara silah-sursat göndərməyə davam edirdi. Erməni silahlı dəstələri mütəmadi olaraq təxribatlar törədərək bölgədə gərginliyi artırır, 2021-ci ildə Ermənistanda istehsal edilmiş minaları Azərbaycan ərazilərinə yerləşdirərək mina terrorunu davam etdirməyə çalışırdılar. Eyni zamanda separatçılar Azərbaycanın əzəli torpaqlarında ekoloji terror aktları həyata keçirir, qanunsuz yollarla təbii sərvətlərimizi talayırdılar. Ölkəmizin haqlı tələblərinə və Qarabağda yaşayan əhali üçün reinteqrasiya çağırışlarına məhəl qoymayan Ermənistan və separatçılar, təxribatlarını daha da artıraraq bölgədə sabitliyin pozulmasına səbəb olurdular. Hətta separatçılar özlərinin qondarma "müstəqillik" iddialarından əl çəkməyərək, oyuncaq "prezident" seçməklə qanunsuz fəaliyyətlərini davam etdirmək istəyirdilər. Bütün bunlar göstərirdi ki, işğaldan sonra yaranan vəziyyət hələ də sabitləşməmiş, separatçı qruplar və Ermənistan tərəfindən bölgədə təhdidlər hələ də mövcud idi".



Deputat xatırladıb ki, Qarabağda qalmış erməni silahlı dəstələri 2023-cü il sentyabrın 19-da növbəti dəfə genişmiqyaslı hərbi təxribat və terror aktları törətdilər. Bu təxribatlar Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə ciddi təhdid yaratmaqla yanaşı, bölgədə sülh və sabitliyə zərbə vurmağa yönəlmişdi. Azərbaycan Ordusu dərhal bu təxribatların qarşısını almaq, 2020-ci ilin üçtərəfli Bəyanatının müddəalarını tam şəkildə yerinə yetirmək və ölkəmizin konstitusiya quruluşunu bərpa etmək məqsədilə bölgədə lokal xarakterli antiterror əməliyyatlarına başladı. "Cəmi 23 saat 43 dəqiqə ərzində həyata keçirilən uğurlu əməliyyat nəticəsində separatçılar təslim olmaq məcburiyyətində qaldılar və bununla da bölgədə separatizmin kökü tamamilə kəsildi. Azərbaycan Ordusu antiterror tədbirləri zamanı yüksək peşəkarlıq göstərərək yalnız hərbi hədəfləri məhv etdi. Həmçinin mülki şəxslərin təhlükəsizliyinə xüsusi diqqət yetirildi. Əməliyyat müddətində heç bir mülki vətəndaş xəsarət almadı, mülki obyektlərə isə ziyan dəymədi. Bu, həm hərbi əməliyyatların uğurunu, həm də Azərbaycanın insan hüquqlarına və beynəlxalq normalara sadiqliyini nümayiş etdirdi. Beləliklə, Azərbaycan Ordusu həm ölkənin suverenliyini qorudu, həm də regionda sülh və sabitliyin bərpası istiqamətində mühüm addım atdı", - deyə o əlavə edib.

K.Bayramov vurğulayıb ki, həyata keçirilmiş antiterror tədbirlərinin nəticəsi olaraq qanunsuz erməni silahlı birləşmələri tamamilə tərk-silah edilərək ölkəmizdən çıxarıldı, Qarabağda qeyri-qanuni xunta rejimi ləğv edildi və separatçıların əsas rəhbərləri məsuliyyətə cəlb edildi. Üçrəngli bayrağımız Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəran kimi ərazilərdə ucaldılaraq Azərbaycanın ərazi bütövlüyünün bərpası və suverenliyinin möhkəmlənməsi rəmzi olaraq nümayiş olundu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən və qətiyyətli siyasəti nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü və dövlət suverenliyini tam şəkildə təmin etdi.

Deputat bildirib ki, 44 günlük Vətən müharibəsi və 23 saat 43 dəqiqəlik antiterror əməliyyatları ilə ölkəmiz öz gücü hesabına bu tarixi bərpa işini həyata keçirib və bu uğur, suverenliyini qorumaq və ərazi bütövlüyünü təmin etmək istiqamətində çətinliklərlə üzləşən bir çox dövlət üçün parlaq nümunəyə çevrilib: "Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuzun keçirdiyi antiterror əməliyyatı suveren dövlətimizin qüdrətini, milli iradəsini və lazım gəldikdə ədaləti bərpa etmək qabiliyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Bu əməliyyat Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə olan sarsılmaz bağlılığının ifadəsi olmaqla, ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırdı. 2024-cü il sentyabrın 19-da Prezident İlham Əliyevin imzaladığı sərəncamla 20 sentyabr "Dövlət Suverenliyi Günü" kimi təsis edildi. Bu tarix 1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsindən başlayaraq, illərlə davam edən ərazi bütövlüyü və dövlət suverenliyi mübarizəsinin ən yüksək zirvəsidir. 2025-ci ildə xalqımız ilk dəfə bu günü rəsmi olaraq qeyd edir. Dövlət Suverenliyi Günü həm ölkəmizin müstəqillik tarixinin, həm də milli birlik və gücünün rəmzidir. Bu gün eyni zamanda keçmişin şərəfli zəfərlərini yad etmək və gələcək nəsillərə vətən sevgisini aşılamaq üçün əvəzsiz bir fürsətdir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *Aişə Əhmədova:*
# "Onunla fəxr edirəm"

Uğurlu lokal antiterror tədbirləri Azərbaycanın növbəti hərbi uğurlarından biri kimi tarixə düşüb. Bir sutkadan da az müddətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın suverenliyi bərpa olunub, separatçılığa son qoyulub.



AZƏRTAC-ın məlumatına görə, 2023-cü il sentyabrın 19-da və 20-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı gizir Elvin Qələndər oğlu Əhmədov da şəhidlik zirvəsinə ucalanlardandır.

Şəhidin həyat yoldaşı Aişə Əhmədova deyib ki, Elvin vətənpərvər olub. Ali təhsil alıb, Turizm fakültəsini bitirsə də, hərbçi olmaq arzusunu gerçəkləşdirib. "Sentyabrın 19-da həyat yoldaşımla danışanda dedi ki, narahat olma, telefonumun batareyası tükənib, səninlə əlaqə saxlaya bilməsəm, məni axtarmağa çalışma, özüm sənə zəng edəcəyəm. Sentyabrın 19-dan 20-nə keçən gecə isə Elvin Ağdərə yolunda gedən döyüşlərdə şəhid oldu. Mənəvi cəhətdən onun yoxluğunu hiss etsək də, Elvinin əmanəti olan qız övladımıza həm anayam, həm də ata. Mən hər bir şəhid xanımı kimi həyat yoldaşımla qürur duyuram. Əgər, əvvəlcədən də Elvinin şəhid olacağını bilsəydim, yenə onunla ailə həyatı qurardım. Mən onunla fəxr edirəm", - deyə Aişə Əhmədova bildirib.

Qeyd edək ki, Prezident İlham Əliyevin sərəncamına əsasən, E.Əhmədov Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərdiyinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qazax şəhərindəki küçələrdən birinə E.Əhmədovun adı verilib.

## *Şəhidin həyat yoldaşı:*
# "Onu hər zaman yanımda hiss edirəm"

Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu Mahir Cəfərov vətənpərvərliyi, mərdliyi, cəsurluğu ilə seçilirdi. Onun ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi idi. Bu amal üçün hərbçi olan Mahir xidmətini ön xəttə aparıb, 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci il 44 günlük Vətən müharibəsində iştirak edib. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı birgünlük lokal xarakterli antiterror tədbirləri zamanı Xankəndi şəhəri yaxınlığında şəhidlik zirvəsinə ucalıb.



AZƏRTAC-ın müxbiri Ağcabədinin Sarvanlar kəndində şəhidin valideynləri ilə görüşüb, onlarla qəhrəman Vətən oğlunun həyatı və şərəfli döyüş yolu haqqında söhbət edib.

Atası Alim kişi deyir ki, Mahir həmişə Vətənin bütövlüyünü düşünürdü, çox vətənpərvər idi: "Bu amal uğrunda yolundan dönmədi. Deyirdi ki, torpaqlarımızı tam azad etməyincə hərbi xidmətdən qayıtmayacağam. 2023-cü il sentyabrın 20-də antiterror əməliyyatı zamanı Xankəndi yaxınlığında şəhid olub. Oğul nə üçündür? Vətəni qorumaq üçün. Mənim oğlum da Vətən uğrunda şəhid oldu. Şükür Allaha ki, torpaqlarımız azaddır. Şəhidlərimizin hesabına bu gün başımızı dik tuturuq".

Anası Nuridə xanım Mahirin kəndinə də, ailəsinə də, ata-anasına da bağlı olduğunu bildirir. "On il idi ki, hərbi xidmətdə idi. 44 günlük müharibədə ürəyim rahat idi. Bütün döyüşlərdə iştirak etdi, sağ-salamat da qayıdıb gəldi. Amma birgünlük əməliyyat zamanı çox narahat oldum...", - deyə şəhid anası sözlərini tamamlaya bilmir, gözləri dolur. Mahirin həyat yoldaşı Aytəkin Cəfərova ilə söhbət edirəm. O, Mahirdən fəxrlə danışır. Deyir ki, onun kimi həyat yoldaşı olduğu üçün qürur duyur: "Mahir çox vətənpərvər idi. Ailəsini, Vətənini sevən insan olub. Biz 2013-cü ildə ailə həyatı qurmuşuq. Mən ailə həyatı quranda o hərbçi idi. 44 günlük Vətən müharibəsində mənə dedi ki, biz torpaqlarımızı azad edəcəyik. Çox dualar etdik, sağ-salamat gəldi. Torpaqlarımız azad olunduğu üçün çox sevinirdi. Həmişə deyirdi ki, sizi sevdiyim qədər Vətənimi də sevirəm. Ailəsinə, atasına, anasına çox bağlı idi. Uşaqları da vətənpərvər böyüdürdü, onlara hərbi geyim alırdı".

Qəhrəman Vətən övladı istərdi ki, övladları vətənpərvər böyüsün, ailəsinə, xalqına layiqli övlad kimi yetişsinlər. İndi Aytəkin Cəfərova Mahirin bu arzusunu yerinə yetirir. "Mahir istəyirdi ki, uşaqları onun yolunu davam etdirsin, Vətəni sevsinlər. Deyirdi ki, şəhid olsam, uşaqları adıma layiq, vətənpərvər böyüt. Mən ona verdiyim sözləri tuturam, onunla qürur duyuram. Fəxr edirəm ki, onun həyat yoldaşıyam. Şəhidlik zirvəsi hər kəsə nəsib olmur. Şəhidlər ölmür. Onu hər zaman yanımda hiss edirəm".

Mahir Cəfərov Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

# Azərbaycanın xarici siyasətinin uğurları




# Azərbaycan və BƏƏ-nin birgə "yaşıl işığı"

Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) dövlət başçılarının qarşılıqlı səfərləri iqtisadi əlaqələrin də getdikcə inkişafına böyük təkan verir. BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə budəfəki səfəri bir daha göstərdi ki, iqtisadi əməkdaşlığın inkişafı davamlı xarakter daşıyır. Bu, özünü ən çox enerji sahəsində göstərir.

2023-cü ilin dekabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) arasında strateji əməkdaşlıq sazişinin imzalanmasını xatırlayaq. Saziş Dubayda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP28) çərçivəsində imzalanmışdı. Bu sənəd ətraf mühitin mühafizəsi sahəsində SOCAR və ADNOC arasında birgə fəaliyyətin daha da genişləndirilməsini, o cümlədən "yaşıl hidrogen", geotermal enerji və karbon emissiyalarının idarə edilməsi sahəsində əməkdaşlıq məsələlərini nəzərdə tutur.

Ümumiyyətlə, ölkələrimizin birgə reallaşdırdığı "yaşıl enerji" layihələri xüsusi əhəmiyyət kəsb edir. Belə ki, BƏƏ-nin "Masdar" şirkətinin ölkəmizdə həyata keçirilən bərpaolunan enerji layihələrində önəmli rolu var. Təkcə o faktı qeyd etmək kifayətdir ki, "Masdar" Bakıda Xəzər regionunun və MDB məkanının ən böyük günəş-elektrik stansiyasını tikib. 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası 2023-cü il oktyabrın 26-da işə salınıb.

Bu il sentyabrın 16-da Şuşada Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşündə dövlətimizin başçısının dediyi kimi: "Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir... Biz xüsusilə ölkənizə və ölkənizin şirkətlərinə minnətdarıq ki, Azərbaycanın bərpaolunan enerji növlərinin işlənilməsi istiqamətində bizə çox böyük dəstək vermişlər. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci Günəş-Elektrik Stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olmuşdur. Bilirsiniz ki, planlarımız daha genişdir, bir neçə qiqavat bərpaolunan enerji növünün yaxın gələcəkdə Azərbaycanda istehsalı məhz Sizin şəxsi göstərişinizin və ölkənizin şirkətlərinin fəaliyyəti nəticəsində mümkün olacaqdır".

Belə ki, həmin gün Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında imzalanmış sənədlərin hər iki Prezidentin iştirakı ilə mübadiləsi mərasimi oldu. Bunların sırasında "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında Azərbaycan Respublikasının "yaşıl enerji" zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə XRG ASC arasında "Cənub qaz dəhlizi"ndə investisiya haqqında Anlaşma Memorandumu" da var.

Göründüyü kimi, BƏƏ-nin aparıcı enerji şirkətlərindən olan "Masdar"la əməkdaşlıq və tərəfdaşlığımız getdikcə daha çox layihələri əhatə edir. Yeri gəlmişkən: 2006-cı ildə BƏƏ-də yaradılan "Masdar" həmin vaxtdan bəri zəngin təcrübə toplayıb, dünyada günəş və külək enerjisinin inkişafına on milyardlarla dollardan çox sərmayə yönəldərək onlarca layihənin iştirakçısı olub. COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev "Masdar" şirkətinin adını çəkib. Çünki bu tanınmış şirkət "yaşıl enerji" sahəsində ən böyük və yaxın tərəfdaşlarımızdandır.

Keçən il Bakıda Azərbaycanın energetika naziri Pərviz Şahbazov və BƏƏ-nin sənaye və yüksək texnologiyalar naziri, "Masdar" şirkətinin idarə heyətinin sədri Sultan Əhməd Əl-Cabirin rəhbərlik etdiyi nümayəndə heyətləri arasında keçirilən görüşü də yada salaq. Görüşdə "Masdar" şirkəti ilə quruda və dənizdə "yaşıl enerji" layihələrinin icrası, hər iki ölkənin apstrim sektorunda dövlət şirkətlərinin iştirakı, 1000 MVt gücündə günəş və külək enerjisi stansiyalarının inşası ölkələrimizin "yaşıl enerji" keçidinə birgə töhfəsi kimi dəyərləndirildi.

Görüşün yekununda Energetika Nazirliyi və "Azərenerji" ASC ilə "Masdar" şirkəti arasında 445 MVt gücündə Biləsuvar, 315 MVt gücündə Neftçala Günəş-Elektrik stansiyaları və 240 MVt gücündə Abşeron-Qaradağ Külək-Elektrik Stansiyası layihələri üzrə "İnvestisiya müqaviləsinə Əlavə", "Enerji alqı-satqı müqaviləsi", "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" və "Torpaq icarə müqaviləsi" imzalandı.

2024-cü il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" - "Caspian Power" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir tədbir çərçivəsində Neftçala, Biləsuvar Günəş-Elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlini qoydular. Sultan Əhməd Əl-Cabir tədbirdəki çıxışında dedi: "Məqsədimiz 2030-cu ilədək bərpaolunan enerji potensialını üç dəfə artırmaqdır. Böyük məmnuniyyətlə deyərdim ki, zati-aliləri, cənab Prezident də qeyd etdiyi kimi, Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan hazırda üç yeni bərpaolunan enerji layihəsinin təməlqoyma mərasimini qeyd edəcəkdir. Biləsuvar və Neftçala günəş-elektrik stansiyaları, Abşeron-Qaradağ külək layihəsi ilə birlikdə Azərbaycanın artmaqda olan enerji ehtiyaclarını təmin etmək məqsədilə 1 qiqavat təmiz enerji hasil edəcək. Bütün bunlar faktiki olaraq, Birləşmiş Ərəb Əmirliklərinin tərəfdaşlıq tarixinə yazılmaqdadır. Belə ki, burada məqsəd bu ölkənin "yaşıl inkişaf"ını, artımını gücləndirmək və Dayanıqlı İnkişaf Məqsədlərini qlobal şəkildə təşviq etməkdir. Qeyd etmək istəyirik ki, bu cür praktiki tərəfdaşlıqlar bizim bu sahə üzrə öhdəliyimizi bir daha nümayiş etdirir, eyni zamanda bizim səmimi niyyətlərimizi və bu sahəyə olan həqiqi marağımızı bir daha ifadə edir. Məqsədimiz burada "yaşıl artım" gündəliyini inkişaf etdirməkdir".

Adıçəkilən həmin layihələr indi öz icrasının müxtəlif mərhələlərindədir. Bu isə o deməkdir ki, Azərbaycan və BƏƏ-nin birgə yandırdığı "yaşıl işıq" getdikcə artacaq.

***Flora SADIQLI, "Azərbaycan"***

# Füzulidə qarşılanma, Şuşada razılaşma

## Azərbaycan və BƏƏ prezidentləri arasında baş tutan budəfəki görüş iki ölkə arasındakı iqtisadi münasibətləri yeni mərhələyə yüksəltdi

Bugünkü dünyada ölkələr sərhədlərlə ayrılsa da, iqtisadi maraqlarla birləşir. İqtisadi diplomatiya artıq sadəcə statistik rəqəmləri özündə ehtiva etmir, həm də qarşılıqlı inamın, strateji baxışın və gələcəyə yönəlmiş əməkdaşlığın göstəricisidir. Bu baxımdan qəti deyə bilərik ki, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında formalaşan iqtisadi münasibətlər son illər yeni bir mərhələyə qədəm qoyub.

Hər iki ölkə arasında münasibətlərin genişlənməsi təsadüfi deyil, sadəcə bir çox amillərin və strateji yanaşmaların vəhdətindən doğan reallıqdır. Həmin əlaqələrin kökündə tarixi və mədəni oxşarlıqlar, qarşılıqlı siyasi anlaşma, beynəlxalq arenada lobbi maraqlarının üst-üstə düşməsi, eləcə də möhkəm iqtisadi təməl dayanır. Enerji əməkdaşlığı, qarşılıqlı investisiyaların artması, yeni ixrac bazarlarının araşdırılması, genişlənən turizm əlaqələri və Azərbaycanın artan intellektual potensialı bu münasibətləri daha dinamik edir. Və bütün bu sadalananların arxasında siyasi sabitlik, bir-birinə olan hörmət və iqtisadi potensialın düzgün qiymətləndirilməsi dayanır. Obrazlı desək, Rub əl-Xali səhrasındakı qum dənizi ilə Xəzər sahilləri arasında kapital axını, investisiya maraqları və strateji layihələrdən ibarət bir körpü qurulub.

Qeyd edək ki, Azərbaycan və BƏƏ arasında diplomatik münasibətlərin əsası hələ 1992-ci ildə qoyulub. Amma münasibətlərin ciddi şəkildə iqtisadi yönə istiqamətlənməsi əsasən 2000-ci illərin sonlarından etibarən sürətlənməyə başlayıb. Azərbaycanın zəngin enerji ehtiyatları, BƏƏ-nin isə maliyyə və investisiya imkanları bu əməkdaşlığın təməlində duran əsas faktorlar olub. Son illər ərzində iki ölkə arasında baş tutan qarşılıqlı rəsmi səfərlərin intensivləşməsi, imzalanan sazişlər və təşkil olunan biznes-forumlar isə münasibətləri yeni müstəviyə çıxarır ki, bu da dostluq və strateji iqtisadi tərəfdaşlıq baxımından çox vacibdir.

Bəhs etdiyimiz iki dövlət arasında əməkdaşlığın əsas sütunlarından biri energetikadır. Bu sahə qarşılıqlı maraqların və strateji baxışın kəsişdiyi nöqtədir. Ənənəvi neft-qaz əməkdaşlığını yeni mərhələyə daşıyan əsas faktor isə bərpaolunan enerji sahəsindəki ortaq təşəbbüslərdir. Xüsusilə BƏƏ-nin "Masdar" şirkətinin Azərbaycandakı iri günəş və külək enerjisi layihələrinə sərmayə qoyması tərəflərin bu günü və sabahı birlikdə qurmaq niyyətlərindən xəbər verir. Qeyd olunan əməkdaşlıq Azərbaycanın "yaşıl enerji zonası" konsepsiyasına beynəlxalq dəstəyin nümunəsi kimi də diqqət çəkir. Bu, "Masdar" şirkətinin Azərbaycanda alternativ enerji sahəsinə böyük maraq göstərməsi ilə ehtiva olunur. Qaradağda inşa olunan günəş-elektrik stansiyası "yaşıl enerji" strategiyasına beynəlxalq dəstəyin bariz göstəricisidir.

Məhz bu cür layihələrin fonunda dövlət başçıları səviyyəsində atılan addımlar əməkdaşlığa daha ciddi şəkildə təkan verir. Bunu təsdiqləyən ən əlamətdar hadisələrdən biri iki gün öncə Qarabağda gerçəkləşdi. BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı Prezident İlham Əliyevin şəxsən Füzuli Beynəlxalq Hava Limanında qarşılaması səfərin mənalı bir jest kimi diqqətçəkən mühüm detalı idi. Səfər çərçivəsində enerji, logistika və "yaşıl texnologiya"lar sahəsində mühüm razılaşmalar əldə olundu. Bu isə onu göstərir ki, Azərbaycan və BƏƏ gələcəyin iqtisadi modelini də birlikdə qurmaq niyyətindədirlər.

Prezident İlham Əliyevin Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü zamanı səsləndirdiyi fikirlər isə bu strateji tərəfdaşlığın əsas istiqamətlərini və gələcəyə dair ortaq maraqları açıq şəkildə ortaya qoyur: "Bizim siyasi əlaqələrimiz çox uğurla inkişaf edir. Biz hər zaman beynəlxalq təşkilatlarda bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Son vaxtlar qarşılıqlı sərmayə qoyuluşu bizi çox şad edir. Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Bu gün imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir. Biz xüsusilə ölkənizə və ölkənizin şirkətlərinə minnətdarıq ki, Azərbaycanın bərpaolunan enerji növlərinin işlənilməsi istiqamətində bizə çox böyük dəstək vermişlər. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci Günəş-Elektrik Stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olmuşdur. Bilirsiniz ki, planlarımız daha genişdir, bir neçə qiqavat bərpaolunan enerji növünün yaxın gələcəkdə Azərbaycanda istehsalı məhz Sizin şəxsi göstərişinizin və ölkənizin şirkətlərinin fəaliyyəti nəticəsində mümkün olacaqdır".

Azərbaycan liderinin səsləndirdiyi fikirlər əməkdaşlığın gələcək onilliklər üçün də necə möhkəm təməllər üzərində qurulduğunu göstərir. Məlum olduğu kimi, "Qaradağ" Günəş-Elektrik Stansiyası bütövlükdə Xəzər regionunun və MDB məkanının ən böyük günəş enerjisi layihəsidir. 262 milyon dollar dəyərində xarici sərmayə hesabına inşa edilən bu obyekt ölkəmizdə xarici investisiya ilə reallaşdırılan ilk sənaye miqyaslı günəş-elektrik stansiyası kimi tarixə düşüb. Belə nəhəng infrastruktur layihəsini öz üzərinə götürməsi və yüz milyonlarla dollar investisiya yatırması "Masdar" şirkətinin Azərbaycana olan inam və etimadının açıq göstəricisidir. Bu, sadəcə başlanğıcdır. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, həmin istiqamətdə daha genişmiqyaslı layihələr gələcəkdə reallaşacaq.

Bu baxımdan Azərbaycan ilə BƏƏ arasında qurulan iqtisadi münasibətləri artıq strateji tərəfdaşlıq adlandıra bilərik. Həmin əlaqələr qarşılıqlı inamın, siyasi iradənin və gələcəyə yönəlmiş ortaq baxışın göstəricisidir. Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri çərçivəsində Prezident İlham Əliyevlə birlikdə imzaladıqları mühüm sənədlər tərəfdaşlığın daha da dərinləşəcəyinə dair ciddi siqnaldır. Füzuli Hava Limanında baş tutan qarşılanma mərasimi və görüşlərin Şuşada keçirilməsi isə iqtisadi əməkdaşlığa rəsmi və strateji məna qazandırır.

Artıq hər iki dövlət arasında qurulan körpü birgə iqtisadi layihələr, "yaşıl enerji" təşəbbüsləri və gələcəyə dair ortaq baxışla daha da möhkəmlənir. Bu körpü Xəzərin Azərbaycan sahilləri ilə Ərəbistan yarımadası arasında coğrafi əlaqə yaradır, iqtisadi və mənəvi yaxınlığı gücləndirərək regionun gələcəyi üçün yeni səhifələr açır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***




# BƏƏ Prezidentinin Azərbaycana səfəri yeni strateji körpünün möhkəmlənməsinə xidmət edir

"Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri Cənubi Qafqaz ilə Körfəz regionunu birləşdirən yeni strateji körpünün möhkəmlənməsi kimi qiymətləndirilməlidir. Bu, Azərbaycanın regional və qlobal miqyasda artan çəkisinin, diplomatik uğurlarının və geosiyasi mövqeyinin təzahürüdür".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi şərhçi Ülviyyə Zülfiqar bildirib.

Onun sözlərinə görə, BƏƏ Prezidentinin səfəri və bu çərçivədə Şuşada keçirilən görüşlər göstərir ki, Azərbaycan Cənubi Qafqazda sülhün və inkişafın təşəbbüskarı kimi çıxış edir, eyni zamanda, islam dünyasında nüfuzunu getdikcə möhkəmləndirir. Bu, həm qlobal enerji gündəliyi, həm də islam ölkələri arasında həmrəylik baxımından mühüm məqamdır.

Ülviyyə Zülfiqar diqqətə çatdırıb ki, son illər ərzində Azərbaycan ilə BƏƏ arasında münasibətlər sürətlə inkişaf edib. Əvvəllər əsasən siyasi müstəvidə müşahidə olunan əməkdaşlıq bu gün iqtisadi, enerji və investisiya sahələrində daha da dərinləşib. Xüsusən də bərpaolunan enerji sektorunda BƏƏ şirkətlərinin fəaliyyəti artıq real nəticələr verir.

"Bu səfər iqtisadi münasibətlərin yeni mərhələyə keçdiyinin göstəricisidir. Son illərdə Azərbaycan və BƏƏ arasında ticarət dövriyyəsi əhəmiyyətli dərəcədə artıb. Əgər əvvəllər əməkdaşlıq daha çox neft sektoru ilə məhdudlaşırdısa, bu gün kənd təsərrüfatı, logistika, turizm və xidmət sahələri ön plana çıxır. Bu, iki ölkə arasında qarşılıqlı inamın və uzunmüddətli strateji tərəfdaşlığın bariz nümunəsidir", - deyə ekspert əlavə edib.

O həmçinin bildirib: "2025-ci ilin ilk səkkiz ayında iki ölkə arasında ticarət dövriyyəsi 104,6 milyon ABŞ dolları təşkil edib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 76,1 faiz artım deməkdir. 2025-ci ilin yanvar-iyun aylarında Azərbaycandan BƏƏ-yə ixrac 54,7 milyon dollar, idxal isə 22,5 milyon dolları keçib. Bu da ümumi ticarət dövriyyəsinin 77,3 milyon dollardan artıq olduğunu göstərir".

Siyasi şərhçinin sözlərinə görə, səfərin humanitar tərəfi də diqqətdən kənarda qalmır. Azərbaycan və BƏƏ arasında mədəniyyət, təhsil və turizm sahəsində yeni layihələr gözlənilir ki, bu da xalqlar arasında yaxınlaşmanı daha da gücləndirəcək.

"Bütün bunlar Azərbaycanın çoxşaxəli xarici siyasətinin və açıq iqtisadi strategiyasının nəticəsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi kurs sayəsində Azərbaycan bu gün Körfəz ölkələri üçün təkcə etibarlı tərəfdaş deyil, həm də enerji təhlükəsizliyi, "yaşıl enerji"yə keçid və iqtisadi əməkdaşlıq baxımından strateji mərkəzə çevrilməkdədir", - deyə Ülviyyə Zülfiqar vurğulayıb.

Elm xadimləri

# Azərbaycan şərqşünaslıq elminin unudulmaz siması



Məşhur Cibran Xəlil Cibran "yalnız sevgi və ölüm hər şeyi dəyişə bilir", - deyə yazırdı. Aida İmanquliyeva humanitar düşüncənin gücünə inamı və sevgisi ilə elm yoluna çıxaraq şərqşünaslığımızın əsas sütunlarından birinə çevrildisə, ölümü ilə də sonrakı nəsilləri onun yarımçıq qalmış yolunu davam etməyə səbəb oldu. 19 sentyabr - Aida xanımın anım günü ərəfəsində onun geniş və zəngin araşdırmalarına diqqət çəkmək, fikirlərinə boylanmaq da tədqiqatçı alimə dəyişməyən sevgidən qaynaqlanmaqdadır.

Görkəmli şərqşünas alim Aida İmanquliyeva XX əsrdə Azərbaycan ərəbşünaslıq elminin əsas istiqamətlərinin müəyyən olunması, ərəb ədəbiyyatının müxtəlif problemləri və ayrı-ayrı mütəfəkkir ərəb yazıçılarının yaradıcılığının öyrənilməsində xüsusi xidmətləri ilə seçilir. Özündən sonrakı nəsil ərəb ədəbiyyatı araşdırmaçıları üçün Aida İmanquliyevanın tədqiqatları məktəb rolunu oynamışdır. Mən də ərəb mühacirət ədəbiyyatını tədqiq etməyə başladığım zaman bu sahədə ölkəmizdə yeganə tədqiqatçı olan Aida İmanquliyevanın zəngin irsi ilə maraqlandım. Əmin ər-Reyhani, Cibran Xəlil Cibran, Mixail Nüaymə kimi məşhur ərəb yazıçılarının əsərlərinin öyrənilməsində, eyni zamanda ərəb ədəbiyyatının bir sıra ümumi məsələlərinin araşdırılmasında ərəbşünas alimin fikirlərinə istinad etdiyim ən əsas mənbələrdən idi. Aida İmanquliyevanın fəaliyyət sahəsi və yaradıcılığı geniş və zəngin olmuşdur. İndi onları təsnif etmək, Azərbaycanın ziyalı xanımı və ərəbşünas aliminin tədqiqatlarının əhəmiyyətinə bir daha diqqət yetirmək arzusunun ifadəsindən və minnətdarlıq duyğusundan irəli gəlir.

Tarix boyu Azərbaycanın ictimai-siyasi və mədəni sferasında qadın ziyalılarımızın da mühüm və əhəmiyyətli rola malik olduğu milli ənənələrimizin davamçısı kimi Aida İmanquliyevanın fəaliyyətində üç əsas sahəni ayırd etmək mümkündür:

İlk növbədə Aida xanımın Azərbaycan şərqşünaslığı tarixində qadın alimlərdən biri, bu sahədə doktorluq dissertasiyası müdafiə edən birinci xanım tədqiqatçı kimi fəaliyyəti diqqəti cəlb edir. Xüsusi vurğulamaq lazımdır ki, ərəbşünas alimin araşdırdığı problemin - ərəb mühacirət ədəbiyyatı mövzusunun elmi tematikası zəngin və mürəkkəb olmaqla yanaşı, yeni və tədqiqatı aparılmamış bir istiqamət idi.

Aida İmanquliyevanın tədqiqatlarının əsas hissəsinin, monoqrafiya və məqalələrinin böyük bir qisminin həsr olunduğu ərəb mühacirət ədəbiyyatının araşdırılmasının başlıca əhəmiyyətini şərqşünas alim özü çox düzgün olaraq şərh etmişdir. Ərəbşünas tədqiqatçıya görə, VIII-XII əsrlərdə çiçəklənmə mərhələsini yaşayaraq intibah dövrünün mədəni yüksəlişinə öz əhəmiyyətli töhfəsini verən ərəb mədəniyyəti XIX əsrin sonu XX əsrin əvvəllərində məhcər ədəbiyyatının formalaşması, bu ədəbi istiqamətin yüksək fəaliyyəti ilə bir daha xüsusi zirvə fəth etmişdir.

Müəyyən zaman daxilində ABŞ-də fəaliyyət göstərən, milli ədəbiyyatı, eləcə də Şərqin çoxəsrlik inkişaf tarixinə malik ədəbi ənənələri, dini-fəlsəfi dünyagörüşü, ictimai-siyasi fikirlərini dünya mədəniyyətinin müxtəlif anoloji düşüncə sferası ilə vəhdətdə ifadə edən ərəb mütəfəkkir yazıçılarının - Cibran Xəlil Cibran, Əmin ər-Reyhani və Mixail Nüaymənin multikultural dəyərlərlə zəngin yaradıcılığının tədqiqi Azərbaycan elminə bir sıra yeni keyfiyyətlər gətirmişdir.

Ərəb mühacirət ədəbiyyatının öyrənilməsi bədii ədəbiyyatın xüsusi forması olan, milli ədəbiyyatın dünya mədəniyyətinə inteqrasiyasında optimal və intensiv ədəbi şəraitin əsas göstəricisi kimi çıxış edən mühacirət ədəbiyyatı nəzəriyyəsinin aydınlaşdırılmasına gətirib çıxarır. Dünya elmində Orientalizm konsepsiyasının ən məşhur nəzəriyyəçilərindən biri olan Edvard Said Qərb mədəniyyətini bir çox sahədə sürgün edilənlərin, mühacirlərin, qaçqınların yaradıcılıq məhsulu hesab edir. Bu kontekstdən yanaşdıqda ABŞ-dəki ərəb ədəbiyyatının da sırf milli ədəbiyyatın mühacirətdəki fəaliyyət qrupu kimi səciyyələndirmək olmaz. Ərəb ediblərinin ingilisdilli fəaliyyəti onların milli ədəbiyyatın sərhədlərini aşmağa, təkcə mövzu, forma, ədəbi ənənələr deyil, dil göstəricisi baxımından da ərəb-Amerika yazıçıları kimi qəbul olunmalarına yol açdı. Mixail Nüaymə Cibran Xəlil Cibranın ingilisdilli ilk kitabı olan "Dəli" kitabını dəyərləndirərkən mühacir yazıçının ikidilli yaradıcılıq fəaliyyətinin məhz mədəniyyətləri qovuşdurmaq arzusundan qaynaqlandığını ifadə edirdi: "O bilirdi ki, ruhunda rəssam və şair əkizdir. O, amerikalılara poeziyasını yox, rəssamlığını gətirmişdir, dili bir qardaşlarına isə rəssamlığını yox, poeziyasını qoymuşdur. Nə ərəblər təsviri incəsənəti anlamadıqları üçün onun rəssamlığından bir şey başa düşürdülər, nə də amerikalılar ərəb dilini bilmədikləri üçün onun poeziyasından bir şey dərk edirdilər. Deməli, əgər o, iki şeyi birləşdirmək istəyirdisə, ingiliscə yazmalı idi. Bu onun çoxdankı arzusu idi".

"Mən iki dünyanın vətəndaşıyam - Kainatın vətəndaşıyam" deyən Əmin ər-Reyhani də ikidilli yaradıcılıq prosesini ədəbi düşüncənin qlobal həllində ən önəmli vasitələrdən sayırdı. Əgər müasir dövrümüzdə "ingilis dili, sanki öz milli mənsubiyyətini itirir, qloballaşmanın həqiqi dili, müasir dünyanın "linqua-franca"sı" kimi dəyərləndirilirsə, bu təlimin ədəbiyyatdakı təzahürlərini daha öncəki dövrlərdə müşahidə edir, məhcər ərəb yazıçılarının bədii irsində görürük. Burada artıq Şərq düşüncəsi Qərb dilində danışırsa, o, milli ədəbiyyatın dünya ədəbiyyatına birbaşa inteqrasiyası, dünyanın ədəbi-bədii yaradıcılıq sferasında qəbul olunma faktı, ən başlıcası isə ədəbi dəyərlərin vəhdəti, fərqli dünyagörüşlərin sintezi kimi meydana çıxır. Ona görə də ərəb ediblərinin yaradıcılığı multukultural dəyərlərlə zəngindir. Bu baxımdan da ərəbşünas alim Aida İmanquliyeva çox haqlı bir nəticəyə gəlir ki, "ərəb məhcər ədəbiyyatının bütün ərəb ədəbiyyatının inkişafı tarixində kiçik epizod olmasına baxmayaraq, "Suriya-Amerika məktəbi"nin yazıçıları həm ərəb Şərqində, həm də Qərbdə çox geniş şöhrət qazanmışlar və onların yaradıcılığını nəzərə almadan yeni ərəb ədəbiyyatının inkişafının tam və dolğun mənzərəsini təsəvvürə gətirmək qeyri-mümkündür".

Aida İmanquliyevanın tədqiqatları müqayisəli ədəbiyyatşünaslığın mühüm məsələlərinin araşdırılması, ərəb yazıçılarının yaradıcılıq nümunəsində Şərq və Qərb ölkələri ədəbiyyatlarının ortaq, uyğun və fərqli problemlərinin öyrənilməsi, qarşılıqlı və birtərəfli təsir nəzəriyyəsinin şərhini qarşıya qoyur. Ərəbşünas alim yazır: "Bu yazıçıların yaradıcı fəaliyyətinin əhəmiyyəti ondadır ki, onlar Avropa və Amerika ədəbiyyatının etik və bədii dəyərini yenilik ruhunda əxz etmiş, yeni formada ifadə etmiş, onların nailiyyətlərini ən yaxşı milli ənənələrlə sintezdə təcəssüm etdirmişlər". Həqiqətən də, Ə.ər-Reyhani və C.X.Cibranın yaradıcılığında ingilis romantikləri və Amerika transsendentalizmi, M.Nüaymənin ədəbi-fəlsəfi irsində rus realizmi və nəzəri-estetik fikri ilə səsləşən məqamlar dünya ədəbiyyatının böyük bir sahəsinə kompleks şəkildə yanaşmaq, müqayisəli araşdırmalar aparmaq zəruriyyətini doğurur. İslam və xristian dini, sufizm və Qərb fəlsəfəsi, qədim hind mədəniyyəti və digər möhtəşəm mənbələrdən qaynaqlanan mövzu və ideyaları da nəzərə alsaq, ərəb yazıçılarının yaradıcılıq sferasını və A.İmanquliyevanın tədqiqatçılıq fəaliyyətinin sərhədlərini təsəvvür edə bilərik.

Bütövlükdə ərəbşünas alimin müqayisəli ədəbiyyatşünaslıq sferasında tədqiq etdiyi ədəbi nümunələr üç əsas problem ətrafında ümumiləşdirilmişdir:

Birinci, mühacir yazıçıların yaradıcılığında Şərq və Qərb mədəniyyətinə baxış məsələsi ərəbşünas alimin diqqət mərkəzində olmuşdur. A.İmanquliyeva yazır: "C.X.Cibran, Ə.ər-Reyhani və M.Nüaymə özlərinin coxcəhətli bədii yaradıcılıqlarında Avropa və Amerika ədəbiyyatının nailiyyətlərini mənimsəmiş, onların dəyərlərini ən yaxşı milli bədii ənənələrlə üzvi surətdə sintezləşdirmişlər".

Şərq və Qərb ölkələri arasındakı mədəni əlaqələrin tarixinə qədər qədim olsa da, Şərq və Qərb problemi öz konseptual həllini son əsrlərin ədəbi-fəlsəfi və ictimai fikrində tapmış, XIX əsrin II yarısından sonra, xüsusilə sonlarına doğru qlobal düşüncənin aktual mövzularından birinə çevrilmişdir. Ərəb mühacirət ədəbiyyatının görkəmli nümayəndələri də Şərq-Qərb probleminə bədii düşüncə və mövzu çərçivəsində yanaşan ediblərdən fərqli olaraq sistemli konsepsiya irəli sürmüş, prinsipial məqamları ortaya çıxarmışlar. Qərb ədəbiyyatında V.Şekspir, K.Marlo, B.Conson, D.Milton, V.Vordsvort, T.Mur, C.Q.Bayron, P.B.Şelli, V.Skot və sairə ərəb ədəbiyyatında Q.Əmin, Ə.İshaq, M.Teymur və digərlərinin Şərq və Qərb mədəniyyətlərinin müqayisəli təqdimi ilə bağlı fikirlərindən daha ön plana keçərək məhcər yazıçılar problemi nəzəri təlim səviyyəsinə yüksəltdilər. "Ağ yol və Səhra" əsərində Şərq və Qərbi nəzərdə tutaraq "biz kifayət qədər dərinə və kifayət qədər yüksəyə gedəndə görüşürük" deyən ər-Reyhani mədəniyyətlərin birliyini vacib amil kimi dəyərləndirirdi.

Aida xanım İmanquliyevanın tədqiqatlarında müqayisəli ədəbiyyatşünaslığın nəzəri məsələləri çərçivəsində araşdırılan ikinci problem romantizmlə bağlıdır. Ərəb yazıçılarının yaradıcılıq metodlarından bəhs edərkən şərqşünas alim yazır: "Suriya-Amerika məktəbi"nin təcrübəsində Qərb və Şərq ənənələrinin sintezi problemi, bu məktəbin nümayəndələri tərəfindən Qərbi Avropa və Amerika romantizminin və rus tənqidi realizminin mənimsənilməsinin özünəməxsus xüsusiyyətləri problemi, onların əsərlərində yaradıcı metodun təkamülü problemi meydana çıxır".

İnsan şəxsiyyətinə böyük önəm vermək, cəmiyyət və təbiətə maddi və mənəvi tərəflərdən yanaşmaq, həqiqət, xeyir və gözəlliyin vəhdəti, klassik ədəbi irsə münasibət, vətən və millət haqqında düşüncələr, humanizm ideyaları, şair təxəyyülünə xüsusi yer verilməsi, poeziya və sənət məsələləri, təbiət və sivilizasiya, multikultural dəyərlər və digər mövzuları ilə ədəbiyyata yol açan romantizm mühacir ərəb yazıçılarının yaradıcılığında da aparıcı yer tutur. Əmin ər-Reyhani maarifçilik, Cibran Xəlil Cibran sentimentalizm, Mixail Nüaymə realizmin xüsusiyyətlərini müəyyən mərhələdə öz əsərlərində ifadə etsələr də, romantizm hər üç müəllif üçün xarakterik olmuşdur. Ə.ər-Reyhaniyə həsr etdiyi tədqiqatlarda əsas problemlərdən biri kimi "sənətkar Əmin ər-Reyhani Qərb, xüsusilə də Amerika romantizmini hansı dərəcədə qəbul edib və romantizmin ideya və konsepsiyaları onun yaradıcılığında hansı inkişaf səviyyəsinə çatıb" məsələsini irəli sürən görkəmli şərqşünas ərəb yazıçısının yaradıcılığını R.U.Emerson, U.Uitmen, H.Toro kimi Amerika transsendentalizminin görkəmli nümayəndələrinin əsərləri ilə müqayisəli tədqiqat prosesində öyrənmişdir.

Müqayisəli ədəbiyyatşünaslığın nəzəri problemləri sistemində A.İmanquliyevanın tədqiqatlarında araşdırılan üçüncü məsələ realizm ilə bağlıdır. Ərəbşünas alim M.Nüaymıni ərəb ədəbiyyatı tarixində realist hekayənin məşhur nümayəndələrindən biri kimi dəyərləndirərək yazır: "M.Nüaymənin hekayələrinin əsas məziyyəti də onların, məhz, real həyatı əks etdirməsidir". Görkəmli tədqiqatçı Aida İmanquliyeva yazıçını "orijinal və özünəməxsus sənətkar" kimi səciyyələndirirdi: "Nüaymənin bütün hekayələri ərəb gerçəkliyinin səciyyəvi xüsusiyyətlərini əks etdirir. Onun novellaları yalnız süjet və məzmununa görə deyil, həm də öz ruhuna görə millidir".

Aida İmanquliyevanın Azərbaycanın ictimai-mədəni həyatında reallaşdırdığı elmi-təşkilati fəaliyyəti də böyük əhəmiyyətə malik olmuşdur. Bir tərəfdən, ərəbşünas alim Moskva, Sankt-Peterburq, Kiyev, Poltava, Hamburq, Halle kimi dünyanın müxəlif şəhərlərində keçirilən beynəlxalq elmi konfranslarda Azərbaycan elmini təmsil etmişdir. Digər tərəfdən isə Aida xanım AEA-nın Şərqşünaslıq İnstitutunda şöbə müdiri, direktor müavini və direktor kimi mühüm təşkilati işləri reallaşdırmışdır.

Bütün bunlar görkəmli şərqşünas alim Aida İmanquliyevanın multikultural dəyərlərlə zəngin ədəbiyyatı tədqiq etməklə Azərbaycan ərəbşünaslığının inkişafındakı mühüm rolunu göstərir, cəmiyyətimizin elmi mühiti və mədəni həyatındakı yüksək fəaliyyətindən xəbər verir.

***Bəsirə ƏZİZƏLİYEVA,***
***filologiya elmləri doktoru, dosent***

# Milli Musiqi Günündə Üzeyir bəy Hacıbəylinin məzarı ziyarət olunub





Bu gün adını Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə qızıl hərflərlə yazdırmış dahi bəstəkar, musiqişünas, pedaqoq, publisist, ictimai xadim Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140-cı ildönümüdür. Bu gün həm də böyük bəstəkarın şərəfinə ölkəmizdə Milli Musiqi Günüdür.

Mədəniyyət tariximizin bu əlamətdar gününün tədbirlər silsiləsi ənənəvi olaraq I Fəxri xiyabanda Üzeyir bəyin məzarının ziyarət olunması ilə başlanıb.

AZƏRTAC xəbər verir ki, mərasimdə mədəniyyət naziri Adil Kərimli, nazirliyin məsul əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli mərasimə toplaşanları Milli Musiqi Günü münasibətilə təbrik edərək bildirib ki, 18 sentyabr mədəniyyətimizin ən əlamətdar günlərindən biridir. Bu gün dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin doğum günüdür.

"Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir bəy Hacıbəylinin xatirəsini hər birimiz dərin hörmət və ehtiramla yad edirik. 2025-ci il fevralın 3-də Prezident İlham Əliyev Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə sərəncam imzalayıb. Ölkəmizdə bu əlamətdar tarix yüksək səviyyədə, təntənəli şəkildə keçirilir. Tədbirlər planı hazırlanıb. 140 illik yubiley çərçivəsində Azərbaycanın musiqi incilərinin ən gözəl nümunələri təkcə ölkəmizdə deyil, bütün dünyada geniş şəkildə səsləndirilir. Hətta İtaliya, Avstriya, Almaniya və Türkiyə kimi ölkələrdə də konsertlər təşkil olunur", - deyə o qeyd edib.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadə çıxışında Üzeyir bəy Hacıbəylinin Azərbaycan musiqisini heyrətamiz sürətlə inkişaf etdirdiyini qeyd edib: "Ancaq o, bu qədər yeniliklər yarada, möhtəşəm əsərlər bəstələyə və insanları öz ideyaları ətrafında birləşdirə bilərdi. Bütün bunlar Üzeyir bəy Hacıbəylinin şəxsiyyətinin və yaradıcılığının nə qədər zəngin, əvəzsiz və təsirli olduğunu göstərir. Onun musiqisi təkcə milli mədəniyyətimizin deyil, həm də dünya musiqi xəzinəsinin incilərindəndir. Üzeyir bəyin gətirdiyi yeniliklər bu gün də Azərbaycan musiqiçilərinə, bəstəkarlarına və gənc istedadlara ilham verir. Onun yaradıcılığı milli kimliyimizin, musiqi irsimizin və mədəni dəyərlərimizin dünyaya tanıdılmasında misilsiz rol oynayıb və gələcək nəsillər üçün yol göstərən bir məktəb olaraq qalır".

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar dahi bəstəkarın ölməz irsindən söz açıb. Bildirib ki, nə qədər ki, Azərbaycan xalqı var, dahi bəstəkarın ölməz irsi hər zaman yaşayacaq.

O vurğulayıb ki, Üzeyir bəy Hacıbəyli Azərbaycan xalqının milli musiqi mədəniyyətinin bünövrəsini qoyan, onu dünyaya tanıdan və xalqın ruhunu musiqi ilə ifadə edən nadir şəxsiyyətlərdəndir.

Milli Məclisin Sədr müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov Üzeyir bəy Hacıbəyli barədə danışaraq bildirib ki, onun əsərləri milli ruhu, vətən sevgisini və humanist dəyərləri əks etdirərək bu gün də həm Azərbaycanda, həm də dünyada böyük maraq və rəğbətlə qarşılanır. Onun sənəti gələcək nəsillər üçün tükənməz ilham mənbəyidir.

Digər çıxış edənlər bildiriblər ki, Üzeyir bəy Hacıbəylinin musiqi irsi yalnız Azərbaycan mədəniyyətinin inkişafına xidmət etməyib, həm də dünya musiqi xəzinəsinə misilsiz töhfədir. Onlar vurğulayıblar ki, onun yaradıcılığı gənc bəstəkarlar və musiqiçilər üçün əvəzsiz bir məktəbdir, milli musiqimizin zənginliyini, innovativliyini və estetik dəyərini nümayiş etdirir. Çıxışlarda həmçinin qeyd olunub ki, Üzeyir bəyin əsərləri xalqımızın mənəvi dünyasını əks etdirir və onun ideyaları musiqi mədəniyyətimizin gələcək inkişafına istiqamət göstərir.

Çıxışlardan sonra mərasim iştirakçıları Azərbaycan musiqisinin korifeylərindən Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Rəşid Behbudov, Niyazi və Müslüm Maqomayevin də məzarlarını ziyarət ediblər.

# "Regional sülh, əməkdaşlıq və Qarabağın dirçəlişinə strateji baxış" mövzusunda forum keçirilib

Sentyabrın 18-də Qarabağ Dirçəliş Fondunun (QDF) təşkilatçılığı ilə "Regional sülh, əməkdaşlıq və Qarabağın dirçəlişinə strateji baxış" mövzusuna həsr olunan forum keçirilib.



AZƏRTAC xəbər verir ki, Anım Gününün beşinci ildönümü ərəfəsində "Qarabağ Dirçəliş Fondunun Dostları" işgüzar platforması çərçivəsində təşkil olunan tədbirdə dövlət və hökumət rəsmiləri, QDF-in donor və tərəfdaşları, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

İlk olaraq Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev "Dayanıqlı gələcəyin qurulmasında yaddaşın rolu" mövzusunda təqdimatla çıxış edərək bildirib ki, Azərbaycan xalqı üçün yaddaş sadəcə tarixin bir "simvolu" deyil, milli kimliyimizin, dözümlülüyümüzün və müstəqilliyimizin təməlidir. Azərbaycan xalqı tarix boyu böyük sınaqlardan keçib. Sovet repressiyalarından Birinci Qarabağ müharibəsinə, oradan da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız Zəfərə qədər yaddaşımız nəsilləri birləşdirib, kədəri həmrəyliyə, qurbanlarımızın fədakarlığını isə milli dirçəlişin təməl daşına çevirib.

"2020-ci ildə Vətən müharibəsi başa çatan kimi Prezident İlham Əliyev məhz Şəhidlər xiyabanından xalqa müraciət edərək Zəfəri bu xatirə məkanından xalqa çatdırdı. Sonrakı illərdə müharibədə həlak olanların ailələri üçün geniş sosial dəstək paketi təsdiq olundu və beləliklə, fədakarlığın heç vaxt unudulmayacağını nümayiş etdirdi", - deyə o qeyd edib.

Tarixi abidələrin və tikililərin də yaddaşımızın bir hissəsi olduğunu deyən Rəhman Hacıyevin sözlərinə görə, bu gün Qarabağda inşa edilən memorial komplekslər, Şəhidlər xiyabanı, Xocalı soyqırımı abidəsi, Zəfər memorialı - bunların hamısı yalnız simvol deyil, həm də dirçəlişimizin, milli iradəmizin göstəricisidir.

"Yaddaşımız yalnız matəm və kədərli xatirələrlə məhdudlaşmır, kimliyimizi formalaşdırır, milli birliyimizi möhkəmləndirir və bizə azad olunmuş torpaqlarda yeni həyat qurmaq üçün ilham verir. Keçmişin dərsləri yaddaşımızda yaşadıqca, hər birimiz həm öz vəzifəmizi daha yaxşı dərk edir, həm də gələcək nəsillər üçün daha sabit, dayanıqlı bir mühit yaratmağa çalışırıq", - deyə R.Hacıyev vurğulayıb.

Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova işğaldan azad edilmiş ərazilərin bərpası və dayanıqlı məskunlaşmanın təmin edilməsi, bərpa-quruculuq işlərində milli həmrəyliyin rolu və digər məsələlərlə bağlı fikirlərini bölüşərək, cəmiyyətin hər bir üzvünün bu proseslərdə iştirakının vacibliyini vurğulayıblar.

Sonra tədbir panel müzakirələrlə davam edib.

Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və kommunikasiya şöbəsinin müdiri Pərvin Bağırovanın moderatorluğu ilə keçən panel müzakirələri zamanı iştirakçılar "Dayanıqlı gələcəyin qurulmasında yaddaşın rolu", "44 günlük Vətən müharibəsinin regional geosiyasətə təsiri", "Qarabağın azadlığı və dirçəlişində dövlət-cəmiyyət birliyinin rolu", "Azadlıq və dirçəliş prosesində milli həmrəylik və kollektiv məsuliyyət, "44 günlük Vətən müharibəsindən sonrakı dövrdə regional əməkdaşlıq və sülh quruculuğu" və digər mövzular ətrafında çıxış edərək geniş fikir mübadiləsi aparıblar.

Tədbirdə Qarabağ Dirçəliş Fondunun donor və tərəfdaşı olan şirkətlərin nümayəndələri də çıxış ediblər. "Huner Group" şirkətinin təsisçisi Ehtiram Quliyev, "Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Osman Karakuş və Veysəloğlu Şirkətlər Qrupunun təsisçisi və baş icraçı direktorun müşaviri İlqar Nuri çıxışları zamanı işğaldan azad edilmiş ərazilərin bərpasında yerli şirkətlərin yaxından iştirakının vacibliyindən danışmaqla yanaşı, QDF-lə əməkdaşlıq çərçivəsində bu istiqamətdə gördükləri işlər və həyata keçirdikləri layihələrlə bağlı geniş məlumat veriblər.

Qeyd olunub ki, Qarabağın bərpası təkcə dövlət qurumlarının deyil, həm də yerli özəl sektorun məsuliyyətidir. Bu gün azad edilmiş torpaqlarda infrastruktur, sosial və iqtisadi layihələrdə iştirak edən yerli şirkətlər həm sahibkarlıq potensialını gücləndirir, həm də regionun dayanıqlı inkişafına töhfə verir.

Çıxışlardan sonra sual-cavab sessiyası keçirilib, çıxışçılar tədbir iştirakçılarının onlara ünvanladıqları çoxsaylı sualları cavablandırıblar.

Tədbirin sonunda fond tərəfindən məruzəçilərə kristal plaket, tədbirin hər bir iştirakçısına isə xatirə, dayanıqlılıq və inkişaf dəyərlərini təcəssüm etdirən ting təqdim olunub. Qeyd edilib ki, iştirakçılar onları əkib böyütməklə xatirənin, yenilənmənin və gələcəyi qoruyub-bəsləmək məsuliyyətinin canlı rəmzinə töhfə vermiş olacaqlar.

# BEYNƏLXALQ HƏYAT

# Fransada sərt qənaət siyasətinə qarşı etirazlar toqquşmalara çevrilib

## Bir neçə sektorun işçiləri iqtisadi məhdudiyyətlərə etiraz olaraq tətillərə başlayıblar

Cümə axşamı Fransada prezident Emmanuel Makronun büdcə siyasətinə etirazlar yenidən başlayıb. Müəllimlər, qatar maşinistləri, əczaçılar və xəstəxana işçiləri tətilə çıxıb, yeniyetmələr isə gözlənilən büdcə ixtisarına qarşı etiraz aksiyaları çərçivəsində məktəbləri blokadaya alıblar.




Fransada hökumətin büdcə siyasətinin əleyhdarları qənaət siyasətinə qarşı etiraz aksiyalarını gücləndiriblər. Media sentyabrın 18-ni Fransa üçün "Qara cümə axşamı" adlandırıb.

Səkkiz böyük həmkarlar ittifaqı vətəndaşları bu yay elan etdikləri "qəddar" büdcə tədbirlərinə etiraz etmək üçün küçələrə çıxmağa çağırıb. Bu yaxınlarda Fransua Bayru hökumətinin süqutu fəalların səfərbər olmasına maneçilik yaratmayıb.

Bakı vaxtilə saat 18-ə qədər səlahiyyətlilər, avtobus dayanacaqlarının və məktəblərin blokadaları da daxil olmaqla, ölkə daxilində 470-dən çox tətil və yürüş yerini qeyd ediblər.

Səhər tezdən hökumətin sosial xərcləri azaltmaq planlarına qarşı başlayan nümayişlər davam edib. Artıq ilk qarşıdurmalar və həbslər barədə məlumat verilir. Ölkə nəqliyyatın çökməsi ərəfəsindədir.

Fransanın ən böyük həmkarlar ittifaqlarının çağırışlarından sonra təhsil, səhiyyə, ictimai nəqliyyat və digər sektorlarda çalışan işçilər hökumətin tətbiq etdiyi iqtisadi məhdudiyyətlərə etiraz olaraq tətillər elan ediblər. Paris və şəhərətrafı ərazilərdə tətillər metro və avtobus xidmətlərinin kütləvi şəkildə dayandırılmasına, eləcə də şəhərətrafı qatarların hərəkətində fasilələrə səbəb olub.

Parisdə polis avtobusların paytaxtın nəqliyyat terminalından çıxmasına mane olmağa çalışan fəalları dağıtmaq üçün dəyənəklərdən və gözyaşardıcı qazdan istifadə edib. Təhlükəsizlik qüvvələri etirazçıları ərazini tərk etməyə məcbur edib və bu, gərginliyi daha da artırıb.

Daxili İşlər Nazirliyinin məlumatına görə, polis 128 nəfəri həbs edib.





Fransanın ikinci böyük şəhəri olan Marseldə polis 22 etirazçını saxlayıb. Lionda, Tuluzada, Kannda etirazçılar dairəvi yolda nəqliyyatın hərəkətini əngəlləməyə cəhd edərək tıxaclar yaradıblar.

Bir sıra şəhərlərdə şagirdlər məktəblərin girişlərini bağlayıblar. Parisin 20-ci rayonunda polis Elen Buşer liseyində məktəbin girişini bağlamağa çalışan tələbələri dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə edib.

Var prefekturasının bildirdiyinə görə, ölkənin cənubundakı Tulon şəhərində etirazçılar A57 və A50 avtomobil yollarında hərəkəti ləngidib və bu, onlarla avtomobilə təsir edib.

Şamberidə fəallar nəqliyyatın hərəkətini əngəlləmək üçün bir kəsişmə ətrafında velosiped yürüşü təşkil ediblər.

Paris, Lion və digər şəhərlərdə hökumətin büdcə siyasətinə etiraz edən yüz minlərlə insanın iştirak etdiyi daha irimiqyaslı etiraz aksiyaları gözlənilir. Mümkün iğtişaşlar ərəfəsində Daxili İşlər Nazirliyi ölkə üzrə 900 minə yaxın insanın küçələrə çıxacağını təxmin edib.

Fransada iqtisadi vəziyyət yüksəksəviyyəli dövlət borcuna görə mürəkkəbdir. 2026-cı ilin büdcəsi ilə bağlı müzakirələr Fransua Bayru hökuməti ilə müxalifət arasında kəskin fikir ayrılıqlarına səbəb olub. Sentyabrın 8-də Bayrunun kabineti parlamentdə etimad səsverməsindən keçə bilməyib və bu, artan dövlət borcu böhranı fonunda ölkədəki siyasi böhranı da dərinləşdirib. Bu arada Fransanın solçu qüvvələri işçiləri və vətəndaşları mümkün hökumət zorakılığı barədə xəbərdarlıq etməklə yanaşı, Makron hökumətinə qarşı "rıçaq yaratmağa" çağırıb.

Sosialist Partiyasının lideri Olivye Fore TF1 telekanalına deyib: "Bu, səs verdiyini və etiraz etdiyini hiss edən, lakin səsi eşidilməyən və indi hökumətə qarşı təsir rıçaqları yaratmaq istəyən insanlar üçün həlledici məqamdır".

Bu tətil, ötən həftə ölkəni bürüyən iğtişaşların, yüz minlərlə Fransa vətəndaşının tətilə çıxdığı etirazların davamıdır. Sentyabrın 10-da prezident Emmanuel Makronun iqtisadi siyasətindən və fəaliyyətindən narazı olan Fransa vətəndaşları küçələrə çıxaraq etiraz aksiyası keçiriblər.

Dünən saat 20-yə olan məlumata görə, Parisdə hökumətin təklif etdiyi qənaət tədbirlərinə qarşı etiraz yürüşü iğtişaşlara çevrilib.

Etirazçılar zibil qutularını yandırıb, hüquq-mühafizə orqanlarına fişəng və butulkalar atıblar. Buna cavab olaraq polis nümayişçilərə qarşı gözyaşardıcı qazdan istifadə edib.

İğtişaşçılar, həmçinin mağaza və bank vitrinlərini sındırıblar, bir neçə avtobus dayanacağı dağıdılıb.

Nümayişçilərlə toqquşmada 6 polis əməkdaşı yaralanıb. Daxili İşlər Nazirliyi asayişi qorumaq üçün 80 mindən çox polis və jandarm, həmçinin zirehli texnika və pilotsuz təyyarələr cəlb edib.

***R.CƏFƏROV, "Azərbaycan"***

# Qırğızıstan MAQATE-nin iki nüvə təhlükəsizliyi konvensiyasına qoşulub

## Ölkənin nümayəndə heyəti Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin 69-cu Baş Konfransında iştirak edib

Qırğızıstanın təbii sərvətlər, ətraf mühit və texniki nəzarət naziri Meder Maşiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) 69-cu Baş Konfransında iştirak edib. Bu barədə agentliyin Mətbuat xidmətindən məlumat verilib.



Konfrans sentyabrın 15-dən 19-dək Avstriyanın paytaxtı Vyanada keçirilib.

Plenar iclasdakı çıxışında Meder Maşiyev Qırğızıstanın MAQATE-nin nüvə təhlükəsizliyi məqsəd və prinsiplərinə sadiq qaldığını qeyd edib. Nazir nüvə enerjisindən dinc məqsədlərlə istifadə, nüvə və radiasiya təhlükəsizliyi, nüvə silahlarının yayılmaması sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayıb.

Qırğızıstan ekoloji və radiasiya təhlükəsizliyi üzrə işinin nəticələrini təqdim edib. Məsələn, Min-Kuş və Şəkəftar kəndlərində uran irsi sahələrinin bərpası layihələri AYİB tərəfindən idarə olunan Mərkəzi Asiya üçün Ətraf Mühitin Bərpası Hesabının dəstəyi ilə tamamlanıb. Prioritet ərazi olan Mayluu-Suu şəhərində qarşıdan gələn bərpa işlərinə xüsusi diqqət yetirilir.

Konfrans çərçivəsində Qırğızıstanın iki əsas beynəlxalq konvensiyaya - Nüvə qəzası haqqında erkən məlumatlandırma haqqında konvensiyaya və Nüvə qəzası və ya radioloji fövqəladə hallar zamanı yardım haqqında konvensiyaya qoşulmasına dair sənədlərin təqdim edilməsi mərasimi keçirilib.

Bundan başqa, MAQATE ilə yeni saziş imzalanıb: Qırğızıstan Respublikası ilə MAQATE arasında 2026-2031-ci illər üçün Texniki Əməkdaşlıq üzrə Ölkə Çərçivəsi. Sənəd tibb, kənd təsərrüfatı, təlim və ekoloji təhlükəsizlik daxil olmaqla digər sahələrdə əməkdaşlığın prioritet istiqamətlərini müəyyən edir. Konfrans çərçivəsində Qırğızıstan nümayəndə heyəti, həmçinin bir sıra ikitərəfli, o cümlədən MAQATE-nin, İnterpolun, OPEC Fondunun, UNIDO-da Qlobal Mədən və Kritik Minerallar Alyansının Nüvə Təhlükəsizliyi və Qorunma Departamentlərinin nümayəndələri ilə görüşlər keçirib.

# Aİ-də dərman çatışmazlığı rekord həddə çatıb

Yeni audit hesabatına görə, Avropa İttifaqı (Aİ) dərman çatışmazlığı problemini həll edə bilmir. Problem uzun illərdir yaşanır və effektiv nəzarət mexanizminin faktiki olmaması onun həllini əngəlləyir.



Auditorların hesabatına görə, Aİ ölkələrində dərman çatışmazlığı getdikcə daha da şiddətlənir və keçən il rekord həddə çatıb.

Hesablama Palatasının məlumatına əsasən, problem bu sahədə ümumavropa nəzarət strukturunun olmaması və ayrı-ayrı ölkələr arasında qanunlarda əhəmiyyətli fərqlərin mövcudluğu ilə daha da dərinləşir.

2022-ci və 2024-cü illər arasında Avropa Dərman Agentliyinə (EMA) 136 kritik dərman çatışmazlığı ilə bağlı məlumat daxil olub. Bu ilin mart ayına olan məlumata görə, 34 dərman çatışmazlığı yaranıb ki, onlardan 16-sı Avropa Komissiyasının əsas preparatlar siyahısındadır.

Dərmanlar bu siyahıya istehsal problemləri, tələbatın kəskin artması və ya istehsalçının məhsulu satışdan çıxarmaq qərarına - təklifi müvəqqəti və ya daimi olaraq məhdudlaşdıran hər hansı faktorlara görə yerləşdirilir. Çatışmazlıqlara trombolitiklər, antibiotik amoksisillin və sianid zəhərlənməsi üçün antidotlar kimi həyati vacib dərmanlar daxildir. Hesablama Palatası dərman vasitələrinin mövcudluğu və ehtiyatları ilə bağlı məlumatların parçalanmasını əsas problemlərdən biri hesab edir. Belə ki, fərqli ölkələr fərqli qaydalar tətbiq edirlər. Məsələn, Niderlandda dərman istehsalçılarından gözlənilən çatdırılma müddəti iki həftədən çox olarsa, hər hansı ehtiyat çatışmazlığı barədə ən azı iki ay əvvəl Səhiyyə Nazirliyinə məlumat vermələri tələb olunur.

Qonşu Belçikada isə istehsalçılar ehtiyatların tükənməsini gözləyə bilərlər.

Üstəlik, istehsalçılar yalnız öz ölkələrinin tənzimləyici orqanlarını xəbərdar edir, onlar da sonradan bu məlumatları ümumavropa orqanlarına ötürürlər. Praktikada bu hesabat gecikdirilə və ya hətta itirilə bilər. Auditorların bildirdiyinə görə, bəzi ölkələr bu məlumatı Brüsselə, ümumiyyətlə, vermirlər.

Hesabatda qeyd edilir ki, problem uzun illərdir məlumdur və Aİ kritik əhəmiyyət kəsb edən dərmanlarla bağlı qanunlar qəbul etməklə bir neçə mühüm addımlar atıb, lakin vəziyyət yaxşılaşmır.

Auditorlar bildirirlər ki, bu qanunlarda Avropa Komissiyasına və ya EMA-ya hesabat öhdəliklərinə əməl olunmasını təmin etməyə imkan verən sanksiyalar kimi icra mexanizmləri yoxdur.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Çinin bəzi bölgələrində qasırğa və leysan yağışları ilə əlaqədar xəbərdarlıq elan edilib

Çinin cənubundakı Quandon əyalətində "Mitaq" qasırğasının yaxınlaşması ilə əlaqədar 4-cü səviyyədə fövqəladə hazırlıq elan olunub.

AZƏRTAC xəbər verir ki, Çin Milli Meteorologiya Mərkəzi cari ilin 17-ci qasırğası olan "Mitaq"ın sentyabrın 19-da Quandon əyalətinin Huylay rayonunun və Tayşan şəhərinin sahillərinə çatacağını proqnozlaşdırıb. Qasırğanın güclü külək və yağıntı gətirəcəyi gözlənilir. Müvafiq qurumlara və əhaliyə sel, daşqın, torpaq sürüşməsi və digər fəsadların ola biləcəyi barədə xəbərdarlıq edilib.

Çinin Su Ehtiyatları Nazirliyi isə 4 bölgədə - Sıçuan, Şansi, Hubey əyalətlərində və Çonçin şəhərində gözlənilən leysan yağışları ilə əlaqədar sel və daşqına qarşı fövqəladə hazırlıq elan edib. Yağıntı səbəbindən Cialin, Çuycian, Hancian və Huayhe daxil olmaqla, bir neçə çayda suyun səviyyəsinin təhlükəli həddə çatacağı, sel və daşqınların yaşayış məntəqələrinə, əkin sahələrinə, nəqliyyat infrastrukturuna ziyan verəcəyi ehtimal olunur. Nazirlik həmin bölgələrə işçi qrupları ezam edib. Yerli qurumlara potensial təhlükəli ərazilərdən əhalinin təxliyəsinə hazır olmaq göstərişi verilib.

# Bir sıra cinayətlərdə ittiham olunan Ermənistan vətəndaşlarının məhkəməsi gələn həftə davam etdiriləcək

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayət törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi gələn həftə davam etdiriləcək.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) məhkəmə iclası sentyabrın 22-nə təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.





# Mədəniyyət





● Muğam ustadları

# Bənzərsiz səsi olan sənətkar



**Dostlarından biri da şair Əliağa Vahid olub. Əbülfət Əliyev şairin altı qəzəlini onun istəyi ilə qələmə aldığını söyləyib. Əliağa Vahidin Əbülfətin adını çəkdiyi iki qəzəlindən biri belədir:**

*Vahid, istərsən əgər musiqidən zövq alasan,*
*Məclisində həm Əbülfət, həm Bəhram olsun.*

## Qayğılı uşaqlıq illərinin ən böyük təsəllisi...

Əbülfət Əliyev 1926-cı il dekabrın 30-da Şuşa şəhərində dünyaya göz açıb. O, dünyanın gözəlliklərini musiqi ilə birlikdə tanıyıb. Şuşanın yaz və yay ayları musiqi məclisləri ilə keçib. Cıdır düzünə, Bazarbaşına yığışan şuşalı musiqiçilərin qurduqları məclislər yalnız könülləri oxşamayıb, həm də yaddaşlara köçüb. Balaca Əbülfətin uşaqlıq xatirələrində də o zaman böyük heyranlıqla dinlədiyi musiqilərin, muğamların sədaları qalıb. İlk dəfə elə həmin məclislərdə görüb Seyid Şuşinski, Xan Şuşinski və Musa Şuşinski kimi sənətkarları...

Onun bütün uşaqlıq çağları bu əsrarəngiz şəhərdə keçməyib. Əbülfətin yeddi yaşı olanda atası Əsəd dünyasını dəyişib. Başçısını itirmiş ailənin dolanışıq qayğıları artıb, güzəranı çətinləşib. Anası Mülayim xanım yeganə çıxış yolunu Şuşadan köçməkdə görüb. Dörd ilədək Füzuli rayonunda yaşayıblar. Sonra Ağdama gediblər. O ağır günləri bacısı Məhbubə xanım belə yada salıb: "Bu dünyada bizim də başımız çox müsibətlər çəkib. XX əsrin 30-cu illərində atamı incidiblər. Evimizi satışa qoyub, nəyimiz var yığışdırıb aparıblar. Anam danışırdı ki, çox qiymətli bədənnüma saatı, şifoneri, hətta yorğan-döşəyi belə götürdülər. Anam təkcə tikiş maşınını verməyib ki, bəs mən uşaqlarımı necə saxlayacağam? Atam Allah adamı olub. O qədər ilahiyyata bağlı adam imiş ki, hətta ömründə şəkil belə çəkdirməyib. Atam öləndə mən anamın qucağında körpə uşaq olmuşam. Yaşca bizdən böyük olan Əbülfət tut dərib mənə yedizdirirmiş ki, ölməyim. Nə isə, anam tikiş maşınını götürüb uşaqları ilə birgə Füzuliyə gedib.



Orada bir neçə il qaldıqdan sonra Ağdama köçdük".

Əbülfət Əliyev təhsilini orada 1 saylı şəhər məktəbində davam etdirib. Məktəbə getmək, dərslərini oxumaq tək qayğısı olmalı ikən çiyinlərinə ailənin dolanışıq dərdi yüklənib. Aclıq çəkməsinlər deyə, anası ilə birgə kəndlərə başaq yığmağa gedib. Çox yorulsa da, özündən çox anasını düşünüb. Çarəsi olsaydı, imkanı çatsaydı, onu əlini ağdan-qaraya vurmağa qoymazdı. Ancaq əlacı yalnız anasına kömək etməyə yetirdi....

O günlərdə könlünü ovudan, onu arzulara bağlayan, gələcəyə ruhlandıran musiqi, muğamlar olub. Pionerlər evində fəaliyyət göstərən muğam dərnəyində uşaqlıq illərindən vurğunluqla dinlədiyi xalq mahnılarını, muğamları ifa edib. Bənzərsiz, məlahətli səsi diqqətləri tez cəlb edib. Əbülfət Əliyev oxuduğu məktəbin ictimai tədbirlərində də iştirak edib.

Ağdam Müəllimlər evində 1938-39-cu illərdə Xan Şuşinskinin rəhbərliyi ilə muğam sinfinin açılması Əbülfət Əliyevin də ürəyincə olub. Görkəmli sənətkar uşaqların ifasına qulaq asıb məsləhətlərini verib. Növbə Əbülfətə çatıb. Xan Şuşinski onu dinlədikdən sonra: "Bala, sən məşqlərə gələrsən, səndən xanəndə olar", - deyib.

Tez-tez iştirak etdiyi ictimai tədbirlərlə tanınan Əbülfət Əliyev on altı yaşından toy məclislərində, el şənliklərində də oxuyub. Çox keçməyib ki, səsi-sorağı rayonun hüdudlarını aşıb. Oxuduğu "Ay bülbüllər", "Kimə yalvarım", "Uca barıdan aşaram mən", "Uca dağlar" mahnıları musiqisevərlərin ruhunu oxşayıb.

## Səsinin dəyərini bilən sənətkar

Bakıdan dəvətlər almağa başlayıb. Əbülfət Əliyev on doqquz yaşında həmişəlik bu şəhərə köçüb. O, radioda ilk dəfə "Şuşanın dağları" mahnısını oxuyub. 1945-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

Tanınmış müğənnilərlə birlikdə konsertlərdə çıxış edən Əbülfət Əliyevin də hər ifası alqışlarla qarşılanıb. Repertuarında "Dinə bilmədim", "Bu qala, daşlı qala", "Ay Pəri", "Endim bulaq başına", "Bülbüllər gəzər bağı", "Tel nazik", "Saçları burma", "Gəl-gəl", "Xal yanağında", "Qara gözlüm" kimi mahnılar yer alıb. Görkəmli xanəndə 400-dən artıq xalq və bəstəkar mahnısını özünəməxsus tərzdə ifa edib.

Opera və Balet Teatrının səhnəsinə ilk dəfə 1957-ci ildə çıxıb. Əbülfət Əliyevin sənətkar taleyinə "Leyli və Məcnun" operasında Məcnun rolunun bənzərsiz şəkildə ifası da yazılıb. Məcnun rolunu elə məharətlə oynayıb ki, ustad Xan Şuşinski tamaşa etdikdən sonra ona deyib: "Sənin bu işin zor işdir".

Bu teatrda uzun müddət çalışıb. Əbülfət Əliyev Opera və Balet Teatrının səhnəsində həm də Kərəm, Şah İsmayıl rollarını ustalıqla ifa edib.

Sənətkarlığı, əməyi yüksək qiymətləndirilib. 1964-cü ildə Əbülfət Əliyev Xalq artisti fəxri adına layiq görülüb.

Əbülfət Əliyev 1967-ci ildə qüvvəyə minən yeni qanuna əsasən, iş yerləri arasında seçim etmək məcburiyyətində qalıb. "Mənim doğma idarəm filarmoniyadır", - deyərək Azərbaycan Dövlət Filarmoniyasını seçib.

Onun səsinin, sənətinin pərəstişkarları yalnız həmvətənləri olmayıb. Əbülfət Əliyev Azərbaycandan kənarda da tanınıb, məşhurlaşıb. İran, Misir, Hindistan, Almaniya və başqa ölkələrdə hər çıxışı maraqla qarşılanıb. 1971-ci ildə Moskvada keçirilən Ümumdünya Musiqi Konqresində iştirak edən xanəndə yüksək ifaçılıq bacarığına görə UNESCO-nun döş nişanına və diplomuna layiq görülüb, ifası ümumittifaq radiosu ilə yayımlanıb.

Səhhətindən şikayəti olmayıb. Həm canının, həm də səsinin dəyərini bilib. Soyuq su içməyib, siqaret çəkməyib ki, səsi korlanar. Spirtli içkilərdən uzaq olub. Ancaq çarəsiz xəstəlik heç nəyə baxmayıb. Xanəndə 1990-cı ilin yayında səhhətindən gileylənib. Həkimə gedib. Müayinələrdən sonra mədə xərçəngi diaqnozu qoyulub.

Həmin ilin noyabrında vəziyyəti ağırlaşıb. Sənətkarı Moskvaya müalicəyə aparıblar. Orada da həkimlərin səyi çarə olmayıb. Əbülfət Əliyev 1990-cı il dekabrın 27-də, altmış dörd yaşında bu dünyayla vidalaşıb.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Milli Xalça Muzeyində "Əsrlərin sədasında xalça sehri" adlı sərgi açılıb

Azərbaycan Milli Xalça Muzeyində Azərbaycan Rəssamlar İttifaqının və UNESCO-nun ixtisaslaşmış qurumunun üzvü Milena Nəbiyevanın "Əsrlərin sədasında xalça sehri" adlı fərdi sərgisi açılıb.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən muzeyin direktoru Əminə Məlikova sərgi barədə məlumat verib. O diqqətə çatdırıb ki, sərginin Azərbaycan Milli Xalça Muzeyində keçirilməsi rəssamın yaradıcılığında milli xalça kompozisiyaları və ornamentlərinə geniş yer verməsi ilə əlaqədardır.

"Sərgidə müəllifin müxtəlif dövrlərdə ərsəyə gətirdiyi qırxdan çox əsəri təqdim olunub. Azərbaycan xalça kompozisiyalarının, ornamentlərinin mühüm yer tutduğu əsərlərdə milli memarlıq, təbiət və çiçək motivləri müasir rəssamlıq dili ilə əks etdirilib. Təqdim olunan "Cənnət bağından heyva", "Bazar səhəri", "Malıbəyli", "Aşiq olmaq", "Sevgi buketi", "Özünəinam buketi" və digər əsərlər bu baxımdan xüsusilə maraqlıdır. Onlarda keçmişin estetik kodları çağdaş təfəkkürlə qovuşur, naxışların dili ilə tariximizə, Azərbaycanın zəngin mədəniyyətinə dərin ehtiram ifadə edilir. Rəssamın əsərləri bu günədək Bakı, Paris, Ankara və Sankt-Peterburq şəhərlərində keçirilən sərgilərdə nümayiş olunub. "Əsrlərin sədasında xalça sehri" sərgisi isə onun Azərbaycan mədəni irsini rəng, naxış və yeni ideyalarla ifadə etdiyi sənət yolunda növbəti mərhələdir", - deyə Ə.Məlikova əlavə edib.

Xalq rəssamı, professor Arif Hüseynov rəssam haqqında fikirlərini bölüşərkən deyib: "Orijinal bədii yanaşması ilə seçilən Milena Nəbiyeva əvvəlcə naxışları kətana köçürür, sonra həmin zəngin fon üzərində əsas süjeti qurur. Bu üsulla xalça motivlərinin Azərbaycanın memarlıq abidələri, doğma bölgələrin təbiət mənzərələri, nemətləri ilə mükəmməl vəhdətini yaratmağa nail olur".

Milli Məclisin deputatı Razi Nurullayev, Azərbaycan Rəssamlar İttifaqının Dekorativ-tətbiqi sənət bölməsinin rəhbəri, Xalq rəssamı Aydın Rəcəbov, Əməkdar incəsənət xadimi, professor Kübra Əliyeva müəllifin yaradıcılığı və sərginin əhəmiyyətindən söhbət açıblar.

Daha sonra qonaqlar sərgi ilə yaxından tanış olublar.

Sərgi sentyabrın 21-dək davam edəcək.

# Dövlət Turizm Agentliyi şimal-qərb regionuna infotur təşkil edib



Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə yerli turizm şirkətlərinin nümayəndələri və səyahət bloqçuları üçün şimal-qərb regionuna infotur təşkil olunub.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, infoturun əsas məqsədi qeyd olunan regionda aqroturizm imkanlarının geniş təbliğ olunması, son illərdə bu sahədə aparılan işlərin nümayiş etdirilməsi və yeni yaradılmış müəssisələrin tanıdılmasıdır.

Oğuz, Şəki, Qax və Zaqatala rayonlarını əhatə edən infotur çərçivəsində əsas istirahət-əyləncə mərkəzləri, muzeylər, balıqçılıq, arıçılıq, şərabçılıq və eko-aqroturizm təsərrüfatları, təbii turizmi imkanlarına malik təbiət nümunələri ziyarət olunub.

Səfər iştirakçıları regionun yerli mətbəx nümunələri ilə tanış olublar.

Tədbir zamanı turistlərin bu məkanlara səfərlərinin təşkil edilməsi və səfər olunan məkanların geniş auditoriyaya çatdırılması, təbliğat işlərinin həyata keçirilməsi istiqamətində müzakirələr aparılıb.

# "Qarsın Qərbi Azərbaycan yaddaşı" sənədli filmi təqdim olunacaq

**Sentyabrın 20-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Gələcəyə Baxış" Avropaya İnteqrasiya İctimai Birliyi tərəfindən hazırlanmış "Qarsın Qərbi Azərbaycan yaddaşı" sənədli filminin təqdimatı keçiriləcək. Ekran işi Azərbaycan televiziyasının (AzTV) istehsalıdır.**

AZƏRTAC xəbər verir ki, sənədli film Türkiyənin Qars vilayətində çəkilib və 1915-1920-ci illərdə deportasiya dövründə Qərbi Azərbaycan türklərinin yaşadıqları tarixi faciələri işıqlandırıb.

Filmdə həmin dövrdə 500 mindən çox soydaşımızın məcburi şəkildə Türkiyə ərazisinə köçməsindən, onların əsasən Ərzurum, Muş və Qars vilayətlərinə pənah gətirməsindən bəhs olunub. Ekran işində Qarsın Altungedik kəndinin ən yaşlı sakini, İrəvanda doğulmuş 105 yaşlı Kudret Erolun həyat hekayəsi və valideynlərinin yaşadığı faciələr tamaşaçılara təqdim edilib. Həmçinin 1915-1920-ci illərdə ermənilər tərəfindən Qars və ətraf ərazilərdə törədilən cinayətlər, o cümlədən 1918-ci ildə Ulu Camidə yandırılan yüzlərlə qarslı barədə faktlar nümayiş olunub.

"Qarsın Qərbi Azərbaycan yaddaşı"nda diqqətə çatdırılan məsələlərdən biri də Qars sakinlərinin Zəngəzur dəhlizinin açılmasını səbirsizliklə gözləməsidir.



# Kuklaçılar ölkəmizə qalibiyyətlə qayıdıblar







**Azərbaycan Dövlət Kukla Teatrı 9-14 sentyabrda "Aktau - Türk Dünyasının Mədəniyyət Paytaxtı" layihəsi çərçivəsində "NOMAD PUPPET" I Beynəlxalq Kukla Teatrları Festivalında ölkəmizi layiqincə təmsil edib.**







Teatrın Mətbuat xidmətindən aldığımız məlumata görə, Türk Dünyası Mədəniyyət Təşkilatı (TÜRKSOY) və Qazaxıstan Respublikası Mədəniyyət və İnformasiya Nazirliyinin təşkilati dəstəyi ilə türkdilli ölkələri bir araya gətirən ilk sənət bayramı öz işini uğurla yekunlaşdırıb. Festivalın "Milli ənənələrin qorunmasına görə" nominasiyasında qalib təmsilçilərimiz olublar. Həmçinin festivalda yüksək səviyyədə iştiraka görə, Azərbaycan Dövlət Kukla Teatrına TÜRKSOY-un Baş katibi Sultan Raev adından Təşəkkürnamə təqdim edilib.

Məlumata əsasən, bütün qalib kollektivlər festivalın diplomları və pul mükafatları ilə təltif olunublar.

Azərbaycan Dövlət Kukla Teatrının yaradıcı heyət üzvləri qazax teatrsevərlər və münsiflər heyəti qarşısında tarixi irsimiz, soy kökümüzlə bağlı hazırlanan "Yalquzaq" tamaşasını təqdim ediblər.

Modern üslubda hazırlanan tamaşanın səhnə tərtibatında qum üzərində təsvirlər ön plana çıxır. Beləcə parket kuklalar (biri canlı plan olmaqla) və iri monitor vasitəsilə qum üzərində rəsmlərin sintezində vizual həllə nail olunub. Qeyd edək ki, yazıçı-dramaturq Məhbubə Hacıyevanın "Yalquzaq və Simurq quşunun nağılı" hekayəsi əsasında hazırlanan birhissəli uşaq tamaşasının quruluşçu rejissoru Anaxanım Abdullayeva, quruluşçu rəssamı İqbal Əliyev, musiqi tərtibatçısı Əməkdar artist Vüqar Camalzadə, qum rəssamı Lalə Hüseynzadədir.

Tamaşada rolları Rəhim Rəhimov (Ata qurd), Ramiz Qəmbərov (Yalquzaq), Səbinə Məmmədova (Ana Qurd), Könül Nəsibova (Simurq quşu), Araz Həsənli (Baybora, Bala qurd) və Yasin Abbasov (Bala qurd) ifa edirlər.

Teatrın Mətbuat xidmətindən bildirilib ki, tədbirdə kukla teatrı üzrə əməkdaşlığın möhkəmləndirilməsi, beynəlxalq əlaqələrin inkişafı, kukla sənətinin təbliği və beynəlxalq səviyyədə tanıdılması məqsədilə memorandum imzalanıb: "Kukla teatr sənətində müasir tendensiyaların təşviq olunması, tamaşaların səhnə təqdimatları vasitəsilə unikal xüsusiyyətlərinin nümayiş etdirilməsi, gənc nəslin estetik təhsilinə töhfə verilməsi, kukla teatr sənətinin beynəlxalq nüfuzunun artırılması və effektiv istifadəsi kimi məqamları önə çıxaran sənəd sonrakı əməkdaşlıq üçün uğurlu təməl hesab oluna bilər".

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

# İtaliyada qorunan XVIII əsrə aid Naxçıvan xalçası Azərbaycana gətiriləcək

**İtaliyalı kolleksiyaçı Mirko Kattainin şəxsi kolleksiyasında qorunub-saxlanılan XVIII əsrə aid Naxçıvan xalçası Azərbaycana gətiriləcək.**

AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyi bununla bağlı kolleksiyaçı ilə müqavilə bağlayıb.



Müqavilədə Mirko Kattainin şəxsi kolleksiyasında qorunub-saxlanılan XVIII əsrə aid Naxçıvan xalçasının satın alınması nəzərdə tutulur. Bunun isə Azərbaycan Milli Xalça Muzeyinin xalça kolleksiyasının zənginləşdirilməsi məqsədi daşıdığı bildirilir.

Müqaviləyə əsasən, sözügedən xalçanın alqı-satqısı 131 min manata başa gələcək.

İtaliyada bir çox nadir və qədim Azərbaycan xalçası muzey və şəxsi kolleksiyalarda saxlanmaqdadır. Xalça muzeyi İtaliyanın məşhur muzey və qalereyaları ilə sıx əməkdaşlıq edir. İndiyədək bir çox qədim və tarixi əhəmiyyətli nadir sənət nümunələri italiyalı kolleksiyaçı Mirko Kattaidən əldə edilərək Xalça Muzeyinə təqdim olunub.

# MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT

## Məsləhətçinin İxtisasına Əsaslanan Seçim (MİƏS)

**Layihənin Adı:** Yaşanılabilən Bakı (hazırlıq mərhələsi)
**Qrant Nömrəsi:** TF-C8884
**Tapşırığın Adı:** Abşeron tullantı bölgəsində bərk məişət tullantılarının vahid idarə olunması üzrə texniki-iqtisadi əsaslandırma
**Satınalma Planının İstinad Nömrəsi:** AZ-MOEC-CS-CQS-02
**Ölkə:** Azərbaycan

1. Azərbaycan Respublikası Dünya Bankından "Yaşanılabilən Bakı" layihəsinin hazırlıq mərhələsi üçün qrant (TF-C8884) əldə etmişdir və qrant vəsaitinin bir hissəsini aşağıdakı məsləhət xidmətləri üçün yönəltməyi planlaşdırır.
2. Məsləhət xidmətləri ("Xidmətlər") Abşeron tullantı bölgəsində bərk məişət tullantılarının vahid idarə olunması üzrə texniki-iqtisadi əsaslandırmanın hazırlanmasını əhatə edir.

Məsləhətçi mövcud ilkin texniki-iqtisadi əsaslandırmanı nəzərdən keçirəcək, yeni məlumatları toplayacaq və yenilənmiş və təkmilləşdirilmiş texniki-iqtisadi əsaslandırmanı təqdim etmək üçün tələb olunan əlavə təhlilləri həyata keçirəcək. Tapşırığa, digər məsələlərlə yanaşı, baza göstəricilərinin yenilənməsi, bərk tullantıların vahid idarə olunması üzrə investisiya təkliflərinin hazırlanması, maliyyə və iqtisadi təhlilin aparılması, konseptual layihənin və tender sənədlərinin hazırlanması daxildir.

Tapşırığın ümumi müddəti müqavilənin imzalanma tarixindən etibarən 6 aydır. Tapşırığın icrasına 2025-ci ilin noyabr ayında başlanılması nəzərdə tutulur.

Tapşırığın ehtimal olunan ümumi dəyəri 505,000 ABŞ dollarıdır.

Təhvil veriləcək işlərin gözlənilən icra cədvəli aşağıda göstərilmişdir:

| Təhvil veriləcək iş | Müddət |
|---|---|
| **D-1:** Başlanğıc (İlkin) Hesabat - ilkin müşahidələrin təqdim olunduğu və vaxt cədvəlinə təsir edən və bu Texniki Tapşırığa aid amilləri əhatə edən nəticələrin vurğulandığı hesabat | Müqavilə imzalandıqdan sonra 4 həftə ərzində |
| **D-2:** Yenilənmiş baza göstəriciləri və tullantıların gələcəkdə yaranması üzrə hesabat | Müqavilə imzalandıqdan sonra 2 ay ərzində |
| **D-3:** Təkliflər və investisiyaların prioritetləşdirilməsi daxil olmaqla, yenilənmiş texniki-iqtisadi əsaslandırma layihəsi və investisiya planının layihəsi | Müqavilə imzalandıqdan sonra 4 ay ərzində |
| **D-4:** Konseptual layihə, texniki şərtlər və tender sənədlərini əhatə edən yekun yenilənmiş texniki-iqtisadi əsaslandırma hesabatı | Müqavilə imzalandıqdan sonra 6 ay ərzində |

Xidmətlər üzrə ətraflı Texniki tapşırığı (TT) aşağıdakı keçiddən əldə edə bilərsiniz:

**https://www.dropbox.com/scl/fi/b6dwhuns9th7ht5fpf6xw/ToR_FS_for_Absheron_Waste_Shed_17.09.2025_WB_NO.docx?rlkey=l5qqa5y063o60ejq4j25b7vwj&st=hgbm1vut&dl=03.**

3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi (İcraçı Qurum) hazırda uyğun ixtisaslı məsləhətçi şirkətləri (Məsləhətçilər) qeyd olunan Xidmətlərin icra edilməsi üçün maraqlarını bildirməyə dəvət edir. Maraqlanan Məsləhətçilər Xidmətləri yerinə yetirmək üçün tələb olunan müvafiq ixtisas və təcrübəyə malik olduqlarını göstərən məlumatları təqdim etməlidirlər.
4. Xidmətləri icra etmək üçün ən uyğun şirkət Dünya Bankının qaydalarında göstərilən Məsləhətçinin ixtisasına əsaslanan seçim (MİƏS) üsuluna uyğun olaraq seçiləcək və aşağıdakı meyarlar üzrə qiymətləndiriləcəkdir:
   (i) Ümumi Təcrübə: a) Maraqların ifadəsinin son tarixinə qədər şirkətin əsas fəaliyyət istiqaməti kimi məsləhət xidmətləri sahəsində ən az 10 illik ümumi iş təcrübəsi; b) Dünya Bankı və ya digər beynəlxalq maliyyə institutları tərəfindən maliyyələşdirilən layihələrdə sübut olunmuş təcrübə.
   (ii) Xüsusi Təcrübə: Mövcud vəziyyətin təhlili, investisiya planı və xərclərin hesablanması, maliyyə və iqtisadi təhlil, tullantıların vahid idarə idarəetmə sistemləri üçün konseptual layihələrin və tender sənədlərinin hazırlanması daxil olmaqla, bərk məişət tullantılarının idarə olunması üzrə texniki-iqtisadi əsaslandırmaların aparılması sahəsində təsdiqlənmiş təcrübə.
   (iii) Qafqaz ölkələrində təcrübə və tapşırıq üçün tələb olunan ixtisaslı mütəxəssislərin mövcudluğu.

Qısa siyahıyaalma mərhələsində əsas mütəxəssislər individual olaraq qiymətləndirilməyəcək, lakin növbəti mərhələdə seçilmiş Məsləhətçinin ixtisasının qiymətləndirilməsinə tapşırıqla bağlı müvafiq əsas mütəxəssislərin ixtisasları, təcrübələri və mövcudluğu da daxil ediləcəkdir. Məsləhətçi komandasına həm beynəlxalq, həm də yerli mütəxəssislərin daxil ediləcəyi gözlənilir.

5. Yuxarıda qeyd olunan seçim meyarlarına uyğun olduğunu nümayiş etdirmək üçün Məsləhətçilər ən azı aşağıdakı dəstəkləyici sənədləri təqdim etməlidirlər. Məsləhətçi şirkət yalnız özünün ixtisas və təcrübəsinə dair məlumatları təqdim edə bilər; belə ki, şirkət öz idarəedici (parent company), eyni idarəedici şirkətə aid (sister company) və ya törəmə şirkətlərinin və ya öz əməkdaşlarının təcrübəsini öz təcrübəsi kimi göstərə bilməz.
   (i) Şirkətin müvafiq dövlət orqanı tərəfindən verilmiş qeydiyyat/təsis sənədləri.
   (ii) Şirkətin əsas fəaliyyət sahələrini əks etdirən broşürlər.
   (iii) Bu Maraq ifadəsi üçün dəvətə əlavə olunmuş 1№-li formanı tamamlayaraq oxşar layihə/müqavilələr barədə məlumatların təqdim edilməsi. Tamamlanmış müqavilələr üzrə sifarişçi rəylərinin (referans məktublarının) surətlərini hazırki mərhələdə təqdim etmək tələb olunmur. Lakin növbəti mərhələdə, təkliflərin təqdim edilməsi zamanı, Sifarişçi seçilmiş məsləhətçidən həmin rəylərin surətlərini təqdim etməyi tələb edə bilər.
   (iv) Tapşırıqla bağlı mövcud mütəxəssislərin siyahısı və onların ixtisası və müvafiq təcrübəsi haqqında qısa məlumat.
6. Məsləhətçilər, ixtisas və bacarıqlarını artırmaq məqsədilə assosiasiya yarada bilərlər. Belə assosiasiyalar birgə müəssisə (BM) formasında (bu halda BM üzvləri birgə və ayrılıqda məsuliyyət daşıyırlar) və ya sub-məsləhətçi formasında ola bilər (bu halda baş məsləhətçi sub-məsləhətçinin xidmətlərinə görə də məsuliyyət daşıyır). Assosiasiya formasında olarsa, məsləhətçilər təklif olunan assosiasiyanın tərkibini əsaslandırmaq üçün maraq ifadəsində (a) assosiasiyanı formalaşdırmaqda məqsədlərini və (b) birgə müəssisənin hər bir üzvünün və/və ya hər bir sub-məsləhətçinin tapşırığın icrasında nəzərdə tutulmuş rolunu və müvafiq ixtisasını izah etməlidirlər.
7. Xidmətlərin göstərilməsində marağı olan məsləhətçilər Dünya Bankının 2025-ci il fevral tarixli "İnvestisiya Layihələrinin Maliyyələşdirilməsi (İLM) üzrə Borcalanlar üçün Dünya Bankının Satınalma Qaydaları" sənədinin 3.14, 3.16 və 3.17-ci bəndlərində Dünya Bankının maraqların toqquşması siyasətinə diqqət yetirməlidirlər.
8. Maraq ifadələri yazılı formada, imzalanmış sənəd şəklində aşağıda göstərilən elektron poçt ünvanına **30 sentyabr 2025-ci il** tarixinədək təqdim olunmalıdır.

Əlavə məlumatı aşağıdakı elektron poçt ünvanından əldə etmək olar:
**Əlaqələndirici şəxs:** Nicat Hüseynov - Layihə koordinatoru, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Layihə İcra Qrupu
**Ünvan:** Heydər Əliyev prospekti 155, AZ1029, Bakı, Azərbaycan
**Tel:** +994 12 310 28 00 (daxili: 2227)
**E-mail:** nhuseynov@economy.gov.az
**Əlavə: Forma-1 (Oxşar Müqavilələr)**
**Məsləhətçi şirkətin adı:** ____ *(Birgə müəssisə şəklində müraciət edilərsə, hər bir tərəfdaş üçün ayrıca forma təqdim olunmalıdır.)*

| s/s | Müddət (tarix aralığı) | Tapşırığın adı | Xidmətlərin əhatə dairəsi və əsas təhvil veriləN işlərin qısa təsviri | Müqavilənin təxmini dəyəri (ABŞ$ ekv.) / Şirkətinizə ödənilmiş məbləğ | Sifarişçinin adı və ölkəsi | Tapşırıqda rolu |
|---|---|---|---|---|---|---|
| 1 | *məs., yanvar 20__ - aprel 20__* | *məs., "...... keyfiyyətinin yaxşılaşdırılması"* | *məs., ...... səmərələşdirilməsi üçün baş plan hazırlanmışdır;* | *məs., 1 milyon ABŞ$ / 0,5 milyon ABŞ$* | *məs., ___ Nazirliyi, ______ (ölkə)* | *məs., A&B&C birgə müəssisəsində aparıcı tərəfdaş* |
| 2 | *məs., yanvar - may 20__* | *məs., "Yerli idarəetmə orqanına dəstək......"* | *məs., ...... üzrə ikinci dərəcəli normativ aktlar hazırlanmışdır.* | *məs., 2 milyon ABŞ$ / 0,2 milyon ABŞ$* | *məs., __ bələdiyyəsi, ____ (ölkə)* | *məs., Fərdi (müstəqil) məsləhətçi* |

# REQUEST FOR EXPRESSIONS OF INTEREST

## CONSULTANT'S QUALIFICATIONS BASED SELECTION (CQS)

**Name of Project:** Livable Baku (Preparation Stage)
**Grant Number:** TF-C8884
**Assignment Title:** Feasibility Study for the Integrated Solid Waste Management in Absheron Waste Shed
**Procurement Plan Ref Number:** AZ-MOEC-CS-CQS-02
**Country of Delivery:** Azerbaijan

1. The Republic of Azerbaijan has received financing from the World Bank toward the cost of the Preparation Stage of the Livable Baku Project (TF-C8884) and intends to apply part of the proceeds for the following consulting services.
2. The consulting services (the Services) include Feasibility Study for the Integrated Solid Waste Management in Absheron Waste Shed.

The Consultant will review the existing Pre-feasibility Study, collect updated data, and conduct additional analyses as required to deliver an updated and enhanced Feasibility Study. The assignment will include, inter alia, updating the baseline, proposing investments for integrated solid waste management, carrying out financial and economic analysis, and preparing conceptual designs and tender documents.

The overall duration of the assignment is 6 months from the contract signature date. The assignment is expected to start in November 2025.

The estimated total cost of the assignment is USD 505,000.

The expected timeline of the deliverables is provided below:

| Deliverable | Timeline |
|---|---|
| **D-1:** Inception Report presenting the initial findings, with an emphasis on findings having an impact on the time schedule and factors affecting these Terms of Reference | 4 weeks after contract signature |
| **D-2:** Updated Baseline & future waste generation report | 2 months after contract signature |
| **D-3:** Draft updated feasibility study, including proposals and prioritization of the investments, draft investment plan | 4 months after contract signature |
| **D-4:** Final updated feasibility study, including conceptual designs, specifications and tender documents | 6 months after contract signature |

The detailed Terms of Reference (TOR) for the assignment can be found at the following link:

**https://www.dropbox.com/scl/fi/b6dwhuns9th7ht5fpf6xw/ToR_FS_for_Absheron_Waste_Shed_17.09.2025_WB_NO.docx?rlkey=l5qqa5y063o60ejq4j25b7vwj&st=hgbm1vut&dl=03.**

3. The Ministry of Economy of the Republic of Azerbaijan (Implementing Agency) now invites eligible consulting firms (Consultants) to indicate their interest in providing the Services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.
4. The best qualified firm to carry out the services will be selected in accordance with the Consultant's Qualifications-based Selection (CQS) method set out in the Regulations of the World Bank and evaluated on the basis of the following criteria:
   (i) General Experience: a) At least 10 years of general experience with consultancy services as the firm's core business prior to the deadline for submission of Expressions of Interest; b) Proven experience with World Bank or other IFI-funded projects.
   (ii) Specific Experience: Proven Experience in conducting solid waste management feasibility studies, including but not limited with baseline analysis, investment plan and cost estimates, financial and economic analyses, preparing conceptual designs and tender documents for integrated solid waste management systems.
   (iii) Experience in Caucasus countries and availability of qualified experts required for the assignment.

While key experts will not be individually evaluated at the shortlisting stage, in the next stage, the evaluation of the selected Consultant's qualifications will include the qualification, experience and availability of key experts specified in the TOR. It is expected that the Consultant's team will include both international and local experts.

5. To demonstrate their qualifications and experience in meeting the above selection criteria, Consultants are requested to submit, as a minimum, the supporting documentation listed below. A consultant firm can only use its own qualifications and experience and not of its parent, sister or subsidiary companies or its employees.
   (i) The firm's incorporation/registration documents issued by the concerned government authority of the country of the firm.
   (ii) The firm's company brochures describing the core areas of business.
   (iii) Completed Form-1 (attached to this Request for Expressions of Interest) to provide information of similar contracts. Copies of completion certificates/references of clients of completed contracts are not required to be submitted with the EOI. In the subsequent stage at the time of submission of proposals, the Client may request the selected consultant to submit such supporting completion certificates.
   (iv) A list of available qualified experts relevant to the assignment, accompanied by brief information on their qualifications and relevant experience.
6. If consultants choose to associate to enhance their qualifications and capability for the assignment, then such associations may either be as a Joint Venture (i.e. all members of the joint venture shall be jointly and severally responsible) and/or Sub-consultants (i.e. the Consultant will be responsible, including for the services of the sub-consultant). In case of an association, the Consultants must explain in the EOI submission (a) the rationale for forming the association and (b) the anticipated role and relevant qualifications of each member of the Joint Venture and/or of each sub-consultant for carrying out the assignment, to justify the proposed inclusion of the JV members and/or sub-consultants in the association.
7. The attention of interested Consultants is drawn to paragraphs 3.14, 3.16 and 3.17 of the World Bank Procurement Regulations for IPF Borrowers, dated February 2025 (the Regulations), setting forth the World Bank's policy on conflict of interest.
8. Expressions of Interest must be submitted in a written form as a signed document to the e-mail address provided below, no later than September 30, 2025.

Further information can be obtained at the e-mail address indicated below.
**Attn:** Mr. Nijat Huseynov, Project Coordinator, Project Implementation Unit of the Ministry of Economy of the Republic of Azerbaijan
**Address:** 155 Heydar Aliyev Avenue, AZ1029, Baku, Azerbaijan
**Tel:** +994 12 310 28 00 (extension: 2227)
**E-mail:** nhuseynov@economy.gov.az

**Attachment: Form-1 (Similar Contracts)**
Name of Consultant firm:______________ (attach separate form for each firm in case of JV)

| No. | Duration | Assignment name | Brief description of scope of Services and main deliverables/outputs | Approx. Contract value (in US$ equivalent)/ Amount paid to your firm | Name of Client & Country of Assignment | Role on the Assignment |
|---|---|---|---|---|---|---|
| **1.** | {e.g., Jan.20__-Apr.20__} | {e.g., "Improvement quality of..............": | {e.g., designed master plan for rationalization of ........; } | {e.g., US$1 mil/US$0.5 mil} | {e.g., Ministry of ......, country} | {e.g., Lead partner in a JV A&B&C} |
| **2.** | {e.g., Jan-May 20__} | {e.g., "Support to sub-national government....." | {e.g., drafted secondary level regulations on.............} | {e.g., US$0.2 mil/US$0.2 mil} | {e.g., municipality of........, country} | {e.g., sole Consultant} |

# *Hadrut sakini:* "Doğma yurda qovuşmağın sevincini sözlə ifadə etmək çox çətindir"

1988-ci ildə Hadrutdan məcburi köçkün düşənlərdən biri də Zahid Mustafayevin ailəsi olub. O zaman Zahidin cəmi 13 yaşı var idi. Amma bir gün doğma torpağa qayıdacağına ürəkdən inanırdı. Aradan 37 il keçəndən sonra Zahid Mustafayev artıq 50 yaşında həyat yoldaşı və üç övladı ilə birlikdə doğulduğu yurd-yuvaya - Hadruta qayıdan ilk ailələrdən biridir.

AZƏRTAC xəbər verir ki, 44 günlük Vətən müharibəsindən sonra azadlığa qovuşan qəsəbə indi yeni həyatını yaşayır. Sentyabrın 14-də Prezident İlham Əliyevin Hadruta səfəri bu doğma yurdun taleyində yeni səhifə açıb. Hadrut qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi, Füzuli-Hadrut avtomobil yolu inşa edilib, elektrik xətləri bərpa olunub, 8 su anbarı təmir edilib, yeni su, kanalizasiya və qaz xətləri çəkilib. 10 ailə olmaqla 41 nəfər doğma yurduna dönüb. Hadrutda məskunlaşan ailələrdən biri də Mustafayevlərdir. Ailə başçısı Zahid Mustafayev doğma yurda qayıdışın sevincini həm də öz ailəsi ilə birlikdə yaşadığını bildirir.

"Doğma yurda dönməyin hisslərini ifadə etməyə sözlər yetməz, bunun adı həm sevinc, həm qürur, həm də xoşbəxtlikdir. Üstəlik, ölkə rəhbərinin bizim evdə qonaq olması ailəmiz üçün daha böyük fəxarət oldu. Qələbə sevincini yaşamaq, Ali Baş Komandanı öz ocağımızda qarşılamaq əvəzsiz duyğudur", - deyə o qeyd edib. Hadrutda artıq firavan həyat qurulub. Abadlıq işləri, bərpa olunmuş evlər, müasir infrastruktur. Zahid Mustafayev deyir ki, bütün şərait yüksək keyfiyyətlə qurulub. "Bu günləri bizə bəxş edən şəhidlərə Allahdan rəhmət, qazilərə isə şəfa diləyirəm. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, qüdrətli Ordumuzun gücü ilə biz qalib xalqa çevrildik və doğma elimizə qovuşduq", - deyə Zahid bildirib.

Onun həyat yoldaşı Flora Mustafayeva da duyğularını gizlətmir. O, Hadrutu ilk dəfə görsə də, buranın gözəlliyinə valeh olduğunu deyir: "Həyat yoldaşım hər zaman bu yerlərin səfasından danışırdı. Mən görməsəm də, xəyallarımda Hadrutu canlandırırdım. Amma buraya gəldikdə təsəvvürümdən də gözəl bir mənzərə ilə qarşılaşdım. Burada yaşamağımız üçün hər cür şərait yaradılıb. Üstəlik, belə bir gündə Prezidentin bizim evimizdə qonaq olması sevincimizə sevinc qatdı", - deyə o əlavə edib.

Qeyd edək ki, Hadrut qəsəbəsində ümumilikdə 541 ev var ki, onlardan da 462-si yararsız, 79-u isə qismən yararlıdır. Bu evlərdən 10-u artıq istismara hazırdır. Qismən yararlı evlərin hamısının ilin sonunadək bərpa ediləcəyi nəzərdə tutulub.




# Sürət, həyəcan, unudulmaz Bakı

**Bu gün Bakı sayca 9-cu dəfə möhtəşəm bir tədbirə - "Formula-1" Azərbaycan Qran-prisinə evsahibliyi edir. Sürətsevərlər planetin ən güclü 10 komandasının və 21 pilotun əzmkar mübarizəsinin şahidi olacaqlar.**











Yarışın keçiriləcəyi Bakı Şəhər Halqası bəzi xüsusiyyətlərinə görə digər "Formula-1" treklərindən seçilir. Şəhərin müasirliyi ilə tarixiliyini özündə birləşdirən Bakı Şəhər Halqası şəhər trekidir və digərləri ilə müqayisədə burada maksimal sürətin qeydə alınacağı gözlənilir. Pilotların yarışacağı avtomobillər - bolidlər də tam hazır vəziyyətdədir. Pilotların yarışacaqları trekdən qalib ayrılmaq üçün bütün güclərini səfərbər edəcəkləri şübhəsizdir.

Digər qran-prilərdə olduğu kimi, paytaxtımızda yarışacaq komandalar da reqlamentə əsasən bu gün hər biri 1,5 saat davam edəcək iki sərbəst yürüşdə trasla tanış olacaq, maşınları yarışa hazır vəziyyətə gətirəcəklər. Şənbə günü səhər sürücülər bir saatlıq məşq keçəcəklər. Adətən, nahardan sonra sıralanma turu və ya təsnifat mərhələsi təşkil olunur. Bu turun yekun nəticəsinə görə, sürücülərin bazar günü keçiriləcək yarışda start düzümü formalaşır.

Bakı küçələri 2016-cı ildən bəri 306 yarış dövrəsi boyu çoxlu hadisəyə şahid olub. Dramatik hadisələr, trekdə qəzalar, partlayan təkərlər, bəzən aqressiya ilə müşahidə olunan qalibiyyət və məğlubiyyətlər Bakı üçün xarakterikdir. Son altı yarışda qalib gəlmiş altı fərqli pilot eyni zamanda yarışın ən sürətli dövrəsinə imza atıb. İndiyədək Bakıda azarkeşlər bir çox hadisələrə - trek insidentlərinə, çoxsaylı qırmızı bayraqlara və təhlükəsizlik maşınlarına şahid olublar. Bundan əlavə, yarışlardan yalnız birində hər dövrəyə liderlik edən bir lider pilot olub. Orta hesabla hər il keçirilən Azərbaycan Qran-prisində yarış boyu ilk üç pilot liderlik üzrə mübarizəyə qoşulub. Daha gərgin liderlik mübarizəsi ilə yadda qalan 2021-ci il yarışında isə bu rəqəm beşə yüksəlib.

Artıq dünyadakı "Formula-1" həvəskarları bu yarışı Bakısız təsəvvür etmirlər. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası bu yarışlarda özünəməxsusluğu ilə seçilir. Trekin uzunluğu 6 kilometrdən bir qədər artıqdır. Bu, uzunluğuna görə dünyada ikincidir.

Unikal xüsusiyyətlərə sahib olan Bakı Şəhər Halqasının ətrafındakı tribunaların sayı doqquzdur. Bunlar "Abşeron", "Azneft, "Muğam", "Sahil", "İçərişəhər", "Qız Qalası", "Bulvar", "Xəzər" və "Filarmoniya" tribunalarıdır. Həmçinin ayaqüstü zonalar üçün də bilet satışı həyata keçirilir. Ümumi tamaşaçı tutumu (ayaqüstü zonalar daxil olmaqla) 30 minə yaxındır. Trekin ən geniş yeri 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan bölmələrində yerləşir. Ən ensiz hissəsi isə 7,6 metrdir (Qoşa Qala qapılarının yanı). Start xətti Azadlıq meydanında, finiş xətti isə Abşeron tribunasının qarşısında təyin olunan trekboyu döngələrin sayı 20-dir.

"Formula-1" yarışlarının yaranma tarixi XX əsrin 20-30-cu illərini əhatə edir. Həmin illər təşkil olunan Avropa Qran-pri turnirləri qısa müddət ərzində böyük marağa səbəb olub. Lakin İkinci Dünya müharibəsinin başlaması ilə bu yarışlara da fasilə verilib. Yalnız müharibədən sonra yenidən aktiv fəaliyyətə başlayan FİA, formula yarışlarına da yeni qaydalarla start verilib.

Bu növ üzrə ilk rəsmi dünya çempionatı isə 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olunub. Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə aparıb. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci gələn "Alfa Romeo"nun italyalı pilotu Cüzeppe Nino Farina "F1" yarışının ilk qalibi kimi tarixə düşüb. Birincilik uğrunda mübarizədə onun əsas rəqibi komanda yoldaşı, argentinalı Xuan Manuel Fanxio olub. Lakin sonralar X.M.Fanxio bu məğlubiyyətin əvəzini yetərincə çıxıb. Belə ki, o, karyerası ərzində 5 dəfə (1951-ci, 1954-cü, 1955-ci, 1956-cı və 1957-ci illərdə) dünya çempionu adını qazanmaqla rəqiblərinə aman verməyib.

Hər il "Formula-1" üzrə dünya çempionatı çərçivəsində Qran-pri adlanan bir neçə mərhələ yarışı keçirilir. Bu mərhələlər müxtəlif ölkələrdə, o cümlədən Avstraliya, Monako, Bəhreyn, İspaniya və digər ölkələrdə təşkil edilir.

Dünyada geniş tamaşaçı auditoriyasına malik olan bu turnirlər izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan "Formula-1" Qran-priləri bir zamanlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanın dörd bir tərəfində təşkil edilir. "Formula-1"də qələbə uğrunda komandalar və heyətində pilotlar mübarizə aparır. Hər komandada iki pilot və buna müvafiq olaraq iki bolid olmalıdır. Mövsüm boyu keçirilən "Formula-1" Qran-pri yarışlarında ən çox xal toplayan pilot dünya çempionu olur.

Bu gün Bakı "Formula-1" yarışlarına tam hazırdır. İndi qalır mübarizə. Azarkeşlər mübarizədə kimin qalib gələcəyini səbirsizliklə gözləyirlər.

***Elçin CƏFƏROV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# "Formula-1" Azərbaycanın beynəlxalq arenada imicini gücləndirir



"Formula-1" dünyanın diqqətini Azərbaycana cəlb edib. Bu sözləri AZƏRTAC-a açıqlamasında Belçika Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Julyen de Frepon "Formula-1" tədbiri ilə bağlı danışarkən deyib.

Səfir bildirib ki, belə beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi həm turizm, həm də iqtisadi inkişaf baxımından böyük əhəmiyyət kəsb edir: "Bu yarış Azərbaycanın beynəlxalq arenada imicini gücləndirir və idman sahəsində yeni imkanlar yaradır. "Formula-1"in gənc nəsil üçün ilham mənbəyi olduğunu da qeyd etmək lazımdır".

O, həmçinin tədbirin təşkilatçılıq səviyyəsindən məmnunluğunu ifadə edib.

Qeyd edək ki, "Formula-1" Azərbaycan Qran-prisi sentyabrın 19-21-də keçiriləcək.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Qlobal dialoqlar məkanı
Qarabağ və Şərqi Zəngəzur ali görüşlərin ünvanına çevrilib

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Müvafiq qanunvericiliyə əsasən imtiyazlı kateqoriyadan olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı

***müsabiqə keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 03 oktyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 06 oktyabr 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***


# Azərbaycanın bəzi yerlərində yağış yağacaq

**Sentyabrın 19-na gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 18-dən 19-na keçən gecə və axşam bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəzlənəcək, gecəyə doğru arabir güclənəcək. Havanın temperaturu gecə 16-19, gündüz 21-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 753 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 14-17, gündüz 18-23, dağlarda gecə 2-6, gündüz 7-12 dərəcə isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 10-15, gündüz 22-27 dərəcə isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygölün bəzi yerlərində fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 6-10, gündüz 11-16 dərəcə, bəzi yerlərdə 20 dərəcəyədək isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanın bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 10-15 dərəcə, bəzi yerlərdə 18 dərəcəyədək isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-17, gündüz 17-21 dərəcə isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarın bəzi yerlərində leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 9-14, gündüz 16-21, dağlarda gecə 2-6, gündüz 6-11 dərəcə isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalanın bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı ehtimal edilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-17, gündüz 18-23 dərəcə isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadın bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli və intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-18, gündüz 18-21, dağlarda gecə 8-10, gündüz 13-15 dərəcə isti olacaq.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **4147**
Sifariş **1893**

Qiyməti 60 qəpik